HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 36 (827) ■ 15 sentyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

## Prezident İlham Əliyev ölkənin şimal bölgəsində səfərdə olub

Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xaçmaz rayonuna gəlib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edən dövlətimizin başçısı sonra Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak edib, şəhərin mərkəzində yerləşən Nikah evinin binası ilə tanış olub. Xaçmazda Bayraq Meydanı və Bayraq Muzeyində yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına bildirilib ki, Bayraq Meydanında hündürlüyü 85 metr olan bayraq dirəyi ucaldılıb, tikintialtı sahəsi 240 kvadratmetr olan fəvvarə tikilib, 5360 kvadratmetr sahədə yaşıllıq salınıb. Ərazidə tikintialtı sahəsi 320 kvadratmetr olan 1 ekspozisiya zalı, 2 köməkçi açıq eyvan və diametri 11 metr olan günbəzdən ibarət Bayraq Muzeyi inşa edilib.



Azərbaycan Prezidenti Xaçmaz rayonunda Xudat-Yalama-Zuxuloba avtomobil yolunun açılışını edib. Bildirilib ki, yolun uzunluğu 24 kilometrdir. Ümumilikdə 12 metr enində yeni yol yatağı tikilib. Tikintidən əvvəl eni 6 metr olan yolun hərəkət hissəsi 7 metrə qədər genişləndirilib. Hər biri 3,5 metr enində olmaqla 2 hərəkət zolaqlı yolun hər iki istiqaməti üzrə 2,5 metr enində yeni çiyinlər tikilib. Hər bir layihənin reallaşdırılması zamanı yollarda piyadaların da təhlükəsiz hərəkəti diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Xudat-Yalama-Zuxuloba avtomobil yolunda da ümumi uzunluğu 4 min poqonmetrə yaxın 2 metr enində yeni piyada səkiləri tikilib. Xudat-Yalama-Zuxuloba avtomobil yolu rayonun 28 min əhalisinin yaşadığı 18 yaşayış məntəqəsini birləşdirir.

Həmin gün dövlətimizin başçısı Xudat şəhərinin bir qrup sakini ilə görüşüb. Ölkəmizin inkişafı ilə bağlı görülən işlərdən razılıqlarını bildirən sakinlər qeyd edirlər ki, son illər bölgələrdəki yaşayış məntəqələri daha da abadlaşır, yeni yollar çəkilir, silsilə sosial layihələr reallaşdırılır və regionlarda yeni iş yerləri yaradılır. Prezident İlham Əliyev Xaçmaz rayonunun hərtərəfli inkişafının daim diqqət mərkəzində olduğunu, burada müxtəlif layihələrin həyata keçirildiyini, çoxlu sayda yeni iş yerlərinin yaradıldığını vurğulayıb.

Sonra dövlətimizin başçısı Yalama qəsəbəsindəki Heydər Əliyev adına parkda yaradılan şəraitlə də tanış olub. Məlumat verilib ki, parkın ümumi sahəsi bir hektardır. Parkın ərazisində Heydər Əliyev Mərkəzinin Yalama qəsəbə filialı da fəaliyyət göstərir. Ümumi sahəsi 120 kvadratmetr olan mərkəzin binasının qarşısında ümummilli liderin büstü ucaldılıb. Büstün önünə gül dəstəsi qoyan dövlətimizin başçısı burada ləzgi icmasının nümayəndələri ilə söhbət edib.

Azərbaycan Prezidenti Xaçmaz rayonuna səfəri çərçivəsində «Yalama» Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışında iştirak edib. Bildirilib ki, 523 hektar ərazidə salınan aqroparkın yaradılmasına birinci mərhələdə 20 milyon manat investisiya qoyulub. Layihənin ilkin mərhələsinə uyğun olaraq, 1000 başı sağmal olmaqla 3000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, müasir suvarma sistemi ilə 385 hektar sahədə iri taxılçılıq təsərrüfatı, istehsal gücü saatda 5 ton olan yem zavodu yaradılıb. Zavodun davamlı və fasiləsiz xammala olan tələbatının ödənilməsi məqsədilə tutumu 4,5 min ton olan anbar və saatda 30 ton taxıl qurudan qurğu quraşdırılıb. Təsərrüfata «Aqrolizinq» ASC vasitəsilə «Simmental» cinsindən olan 1103 baş cins heyvan gətirilib və bu günədək 601 baş bala alınıb. Hazırda təsərrüfatda yüksək yağlılıqlı və keyfiyyətli süd istehsal olunur. Aqroparkda çalışanlar üçün hər cür şərait yaradılıb, 40 çarpayılıq yataqxana, yeməkxana və ofis binası inşa edilib, ərazi abadlaşdırılıb və geniş yaşıllaşdırma işləri görülüb. Bununla yanaşı, aqroparkda müasir texnologiyanın tətbiq edildiyi, dəyəri 12 milyon manat, gündəlik emal gücü 100 ton olan süd zavodu, 60 hektar ərazidə intensiv bağçılıq (dəyəri 3 milyon manat) və Xaçmazın Muxtadır qəsəbəsində dövlət ehtiyat fondu torpaqlarından uzunmüddətli icarəyə götürüləcək 957 hektar sahədə müasir suvarma sisteminə malik olan iri taxılçılıq təsərrüfatları (dəyəri 5 milyon manat) yaradılacaq. Süd emalı zavodunda kərə yağı, quru süd və pendir istehsal olunacaq.

Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev Xaçmazda aparılan abadlıq-quruculuq işlərini, yeni istehsal müəssisələrinin yaradılmasını, sahibkarlığın inkişafı, iqtisadi və sosial sahələrdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib, bölgədə yeni layihələrin həyata keçirilməsi ilə bağlı işlərin davam etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Xaçmaza səfərini başa çatdıraraq Qusar rayonuna gəlib. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Sonra yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun və Qusar rayonunun Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışını edən Prezident İlham Əliyev Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatması münasibətlə keçirilən mərasimdə iştirak edib. Dövlətimizin başçısına layihə barədə məlumat verilərək qeyd olunub ki, layihə çərçivəsində Qusar Sukanal İdarəsi üçün 472 kvadratmetr sahəsi olan yeni inzibati bina tikilib. Binada xidməti otaqlar, iclas zalı, zəng mərkəzi, anbar, informasiya texnologiyaları otağı, digər xidməti və yardımçı otaqlar yaradılıb. Layihə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Qusar şəhərində 19 min 600 nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, layihə çərçivəsində Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən bu kəndlərin 12 min sakini faydalanacaq.

Sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə çıxış edən Prezident İlham Əliyev Qusarda infrastrukturun yaxşılaşdırıldığını, su probleminin həll olunduğunu, rayonun sosial-iqtisadi inkişafının sürətlə getdiyini bildirib. Qeyd edib ki, rayonda digər sosial infrastruktur obyektlərinin açılması istiqamətində tədbirlər davam etdiriləcək.

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını, mənəvi dəyərlərə bağlılıqlarını nümayiş etdirir, Uca Tanrıya yaxınlığın fərəhini yaşayırlar.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçası kimi tarix boyu islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və multikultural mühitin yaranmasında islam dininin də müstəsna rolu olmuşdur.

Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən, Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2016-cı il.*

## Azərbaycan və yəhudi xalqlarının dostluğu tarixi ənənələrə söykənir

Sentyabrın 13-də Prezident İlham Əliyev Ümumdünya Yəhudi Konqresinin prezidenti Ronald Lauderin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısı ölkəmizdə müxtəlif xalqların və dinlərin nümayəndələri, o cümlədən yəhudilər arasında əsrlər boyu dostluq və qarşılıqlı dəstəyə əsaslanan tarixi əlaqələrin mövcudluğunu məmnunluqla qeyd edib, yəhudilərin dövlətimizin ictimai həyatında fəal rol oynadıqlarını və bütün dövrlərdə əmin-amanlıq şəraitində yaşadıqlarını deyib. Prezident İlham Əliyev Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşamasını dövlət siyasətinin təzahürü kimi dəyərləndirib və ölkəmizdə bu sahədə həyata keçirilən işlərin dünyanın digər yerlərində də tətbiq olunmasının zəruriliyini bildirib.

Ronald Lauder Azərbaycan və yəhudi xalqları arasında olan tarixi əlaqələrə və yəhudilər üçün ölkəmizdə yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, respublikamızda yaşayan yəhudi icmasına münasibəti yüksək qiymətləndirərək bunun bir nümunə olduğunu deyib.

## Məktəb zamanı gəldi...

### Dövlətimizin başçısı tədris müəssisələrində vəziyyətlə tanış olub

Prezident İlham Əliyev sentyabrın 13-də Xətai rayonundakı 58 nömrəli tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. Bildirilib ki, bu il məktəb üçün 20 əlavə sinif otağı, 1 informatika və 3 fənn laboratoriyası inşa olunub. 576 şagird yerlik yeni sinif otaqlarında təlim-tərbiyə, tədris prosesinin yüksək səviyyədə həyata keçirilməsi üçün bütün şərait yaradılıb. Yeni tədris ilindən şagirdlər daha geniş və müasir təhsil tələblərinə cavab verən sinif otaqlarında dərs keçəcəklər. Kompüter avadanlıqları ilə təchiz olunmuş siniflər, müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan akt zalı da hazır vəziyyətə gətirilib.



Həmin gün Prezident İlham Əliyev Bakının Xətai rayonundakı 261 nömrəli məktəb-liseydə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə də tanış olub. Dövlətimizin başçısına məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı məlumat verilib. Bildirilib ki, ümumi sahəsi 6600 kvadratmetrdən çox olan, 1176 şagirdin təhsil aldığı məktəbin bütün sinif otaqları yüksək səviyyədə yenidən qurulub və zəruri avadanlıqla təchiz olunub. Fənn laboratoriyalarının hamısı əyani dərs vəsaitləri ilə təmin edilib. Məktəbdə müasir idman avadanlıqları ilə təchiz olunan qapalı idman zalından əlavə, həyətdə yeni idman meydançası da yaradılıb. Sahəsi 2720 kvadratmetrdən çox olan meydançada şagirdlərin bədən tərbiyəsi dərslərini keçmələri üçün bütün imkanlar var. Yenidənqurma işləri çərçivəsində məktəbin ətrafında, təxminən 21 min 500 kvadratmetr ərazidə abadlıq işləri görülüb.

Dövlətimizin başçısı sentyabrın 14-də Bakının Nizami rayonundakı 32 və 12 nömrəli tam orta məktəblərin yenidən tikilmiş yeni tədris korpusunda və əsaslı təmir edilmiş 9 nömrəli Bakı Peşə Liseyinin bazasında yaradılmış IT STEP akademiyasında görülən işlərlə tanış olub.

BU NÖMRƏMİZDƏ

ƏSAS MƏQSƏD DAHA İŞLƏK VƏ MÜTƏRƏQQİ İDARƏETMƏ MEXANİZMİNİN TƏTBİQ OLUNMASIDIR 2
VERGİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINDA MEDİANIN ROLU 3
VERGİ PARTNYORLUĞU SAZİŞİ QARŞILIQLI ETİBARA VƏ ŞƏFFAF MÜNASİBƏTƏ ZƏMİN YARADIR 4
VERGİ İSLAHATLARI İCTİMAİYYƏTİN MÜZAKİRƏSİNDƏ... 5

## Proqnoz tapşırığı yerinə yetirilib

2016-cı ilin yanvar-avqust ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 4 milyard 351 milyon 970 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,3 faiz əməl edilib. Bu ilin səkkiz ayı ərzində 75 min 806 vergi ödəyicisi qeydiyyata alınıb.

## İkiqat vergitutmada inzibatçılığın sadələşdirilməsi

Prezident İlham Əliyevin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamda mühüm məsələlərdən biri də Azərbaycanın vergi sisteminin beynəlxalq standartlara tam uyğunlaşdırılmasıdır. Vergilər Nazirliyi hazırda Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Qlobal Forumu çərçivəsində vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinq əldə etmək və bu reytinqi qoruyub saxlamaq məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi və digər istiqamətlərdə tədbirləri davam etdirir.

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Yusifovun sözlərinə görə, 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri də Azərbaycan Respublikası ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq sazişlərin inzibatçılıq qaydalarının sadələşdirilməsidir. Hazırda Azərbaycan Respublikası tərəfindən 51 dövlətlə bu cür saziş imzalanıb. Sazişlərin inzibatçılıq qaydalarının təkmilləşdirilməsi ilə bağlı işlər çərçivəsində rezident və qeyri-rezident şəxslərdən daxil olan müraciətlərin elektronlaşdırılması və sadələşdirilməsi, ərizə formalarının və tələb olunan inzibati prosedurların azaldılması nəzərdə tutulur. İndiki inzibatçılıq qaydalarına əsasən, sənədlər kağız formatında təribt edilir, vergi orqanı əməkdaşları ərizə formalarını doldurmaq üçün xeyli vaxt sərf edirlər. İnzibatçılığın sadələşdirilməsindən sonra bu proses elektronlaşdırılacaq və müraciət edən şəxslər tərəfindən ərizələrin doldurulmasına sərf olunan vaxt və inzibati yük azalacaq. Bu, həm də vergi orqanları tərəfindən müraciətlərə baxılmasının sürətləndirilməsinə və səmərəliliyin artırılmasına xidmət edəcək.

Hazırda Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında 10-a yaxın ölkə ilə imzalanmaq üçün hazır olan sazişlər var. Sazişlərlə yanaşı, digər dövlətlərlə vergi məlumatlarının mübadiləsi üçün hüquqi əsas təşkil edən kifayət qədər geniş hüquq-müqavilə bazası mövcuddur və bu baza genişlənməkdə davam edir. İndiyə qədər Vergilər Nazirliyi tərəfindən dünyanın 111 dövlətinin vergi orqanları ilə vergi məlumatlarının, əsasən, sorğu əsasında həyata keçirilən məlumat mübadiləsinə imkan verən beynəlxalq müqavilələr imzalanıb. Dövlət başçısının müvafiq sərəncamından irəli gələn daha bir vəzifə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Qlobal Forumu çərçivəsində vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinqin əldə edilməsidir.

Azərbaycan Qlobal Foruma 2013-cü ilin fevral ayında üzv olub. Forumun məqsədi dövlətlər tərəfindən vergi məlumatları mübadiləsinin beynəlxalq standartlara əməl edilməsi səviyyəsinə nəzarət etməkdir. Reytinqi Forumun katibliyi və üzv ölkələrin hər birinin nümayəndəsindən ibarət qiymətləndirmə qrupu təyin edir. Reytinq balı üzv dövlətlərdə məlumat mübadiləsinin beynəlxalq standartların tətbiqi səviyyəsinin iki mərhələdən ibarət qiymətləndirmə prosesi üzrə müəyyən olunur. Birinci mərhələdə qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu, ikinci mərhələdə isə həmin qanunvericiliyin praktikada tətbiqi səviyyəsi qiymətləndirilir. Qiymətləndirmə zamanı təxminən 9-10 göstərici nəzərə alınır.

Ü.Quliyevin sözlərinə görə, Azərbaycan üzrə qiymətləndirmənin 1-ci mərhələsi 2015-ci ildə uğurla tamamlanıb və növbəti mərhələyə keçmək uyğun görülüb. 2-ci mərhələ çərçivəsində bu ilin mart ayında qiymətləndiricilər ölkəmizə səfər edərək məlumat mübadiləsinin təcrübədə həyata keçirilməsi səviyyəsi ilə əyani şəkildə tanış oldular. Hazırkı mərhələdə Azərbaycanın vergi sistemində məlumat mübadiləsinin səmərəliliyi qiymətləndirilməkdədir. Bu mərhələdə daxil olan sorğuların cavablandırılma vaxtı və müddəti, sualların tam cavablandırılıb-cavablandırılmaması, əlavə məlumat tələb olunduğu halda qarşı tərəfin məlumatlandırılması, sorğunun hansı şəraitdə vergi ödəyicisindən əldə edilməsi, vergi ödəyicisi məlumatı verməkdən imtina etdiyi halda məcburi alınma qaydaları, konfedensiallıq və digər məsələlər araşdırılır. Bundan sonra qiymətləndirmə qrupu tərəfindən 4 qiymət meyarından biri üzrə reytinq təyin ediləcək. Bu ilin sentyabr ayında hər iki mərhələnin nəticələri əsasında ölkəmizin beynəlxalq standartlara uyğunluq səviyyəsi müvafiq reytinq balı ilə qiymətləndiriləcək.

Bəs reytinq vergi orqanı və həmin ölkə üçün hansı əhəmiyyət kəsb edir? Ü.Quliyev deyir ki, reytinq həmin ölkənin şəffaf, beynəlxalq standartlara cavab verən vergi sisteminin və etibarlı tərəfdaş olmasının göstəricisidir. Avropa İttifaqında reytinq qazanmış ölkələr daha yaxın partnyor kimi qəbul olunur və əməkdaşlıq məsələləri zamanı  onlara xüsusi önəm verilir. Yüksək reytinq balı əldə etmək ölkənin beynəlxalq müqavilələrə yaxşı əməl etməsi kimi də səciyyələndirilir.

2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri də ölkə hüdudlarından kənarda əldə edilən gəlirlərin vergiyə cəlb olunması üçün digər dövlətlərlə məlumatların avtomatik mübadiləsinin təşkil edilməsidir və bu istiqamətdə tədbirlər görülməkdədir. Bəziləri bu istiqamət üzrə vergitutmanın ölkədən kənarda, əsasən də Rusiya və digər MDB ölkələrində çalışan minlərlə soydaşımıza şamil olunacağını düşünürlər. Lakin xarici ölkələrdə uçotda olmadıqlarına və vergi qeydiyyatına alınmadıqlarına görə, həmin şəxslərin vergiyə cəlb olunması nəzərdə tutulmur. Yaxud Rusiyada bu ölkənin vətəndaşının adına qeydiyyata alınmış müəssisəyə sahib olan azərbaycanlılar da əldə etdikləri gəlirlərdən vergi ödəməyəcəklər. Vergi hüquqi-təşkilati forması olan və vergi orqanında qeydiyyata alınan şəxslərin gəlirlərindən tutulacaq.

Mütəmadi olaraq hər bir vergi ili bitdikdən müəyyən müddət ərzində məlumat mübadiləsi aparılacaq dövlətlərdən avtomatik qaydada Azərbaycan rezidenti olan hüquqi və fiziki şəxslərin vergi ili ərzində əldə etdikləri gəlirlərin növləri və məbləğləri barədə ətraflı məlumatlar elektron və kağız formatında göndəriləcək. Bu isə vergi orqanları üçün ölkə hüdudlarından kənarda gəlir əldə edən və bu gəlirləri könüllü bəyan etməyən şəxslərin müəyyənləşdirilməsi və qanunamüvafiq qaydada vergiyə cəlb edilməsi  üçün əlavə məlumat mənbəyi olacaq.

**Elbrus CƏFƏRLİ**

# Əsas məqsəd daha işlək və mütərəqqi idarəetmə mexanizminin tətbiq olunmasıdır



Müsahibimiz Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarəsinin rəisi Elçin Bəylərovdur

***- Elçin müəllim, Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə Vergilər Nazirliyinin yeni struktur vahidlərindəndir. Bu qurumun yaradılması hansı zərurətdən irəli gəldi?***

- Ölkəmizdə yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, eləcə də sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin yaradılması istiqamətində atılan addımların tərkib hissəsi olaraq, vergi sistemində də geniş islahatlar aparılır. Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə vergi nəzarətinin və vergitutma bazasının genişləndirilməsi, vergi daxilolmalarının artırılması, eləcə də regionların daim diqqət mərkəzində olması nəzərə alınaraq yaradılıb. Bu qurum ərazi vergi orqanlarının fəaliyyətinə nəzarətin səmərəliliyinin artırılmasını, vergilərin tam həcmdə və vaxtında ödənilməsini təmin edəcək.

Baş İdarənin əsas funksiyaları dövlət büdcəsində ərazi vergi orqanları üzrə müəyyən olunmuş proqnoz tapşırıqlarının icrası ilə əlaqədar nazirliyin digər funksional idarələri ilə birlikdə dövlət büdcəsinə vergi yığımını təşkil etmək, nəzarət işlərini həyata keçirmək, eləcə də ərazi vergi orqanlarının yerlərdə digər dövlət qurumları ilə işlərinin düzgün əlaqələndirilməsini təmin etməkdir.

***- Vergilər Nazirliyində aparılan struktur dəyişiklikləri ilə əlaqədar ərazi vergi orqanlarının işində nə dəyişib?***

- Baş İdarənin qarşısında duran əsas məqsədlərdən biri ərazi vergi orqanlarının kadr potensialından səmərəli istifadə edilməklə daha işlək və mütərəqqi idarəetmə mexanizminin tətbiq etməkdir. Vergilər nazirinin əmri ilə ərazi vergi orqanlarının strukturlarında edilmiş dəyişikliklər vergilərin tam həcmdə və vaxtında ödənilməsinin təmin olunması, vergi ödəyicilərinə nəzarətin daha səmərəli həyata keçirilməsi, vergi potensialının genişləndirilməsi, eləcə də vergidənyayınma risklərinin təhlili və könüllü əməletmənin səviyyəsinin yüksəldilməsi məqsədi daşıyır. Dəyişikliklərdən əvvəl ərazi vergi orqanları tərəfindən proqnozun icrası ümumi vergi ödəyiciləri üzrə təşkil edilirdi. Struktur dəyişikliklərinə əsasən, ərazi vergi orqanlarında qeydiyyatda olan vergi ödəyicilərinə sahə təhkimçiliyi prinsipi müəyyənləşdirilib ki, bu da nəzarətin tam təmin edilməsinə imkan yaradır. Bundan başqa, bəyannamələr üzrə kameral vergi yoxlamalarının keyfiyyətinin artırılması məqsədilə bəyannamə şöbələrinin tərkibində 2 yeni bölmə yaradılıb.

***- Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramları, xüsusilə yeni müəssisələrin yaradılması son illər bölgələrin iqtisadi vəziyyətində əsaslı dəyişikliklərə səbəb olub. Bütün bunlar vergi daxilolmalarına necə təsir göstərir?***

- Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına təkan verir və bunların nəticəsində regionlardan dövlət büdcəsinə daxilolmaların məbləği nəzərəçarpacaq dərəcədə artır. Dövlət proqramlarının icrasından öncə, məsələn, 2003-cü ildə regionlar üzrə vergi daxilolmaları cəmi 37,7 milyon manat təşkil etdiyi halda, 2015-ci ildə bu rəqəm 16,5 dəfə artaraq 622,1 milyon manata çatıb. Regionlarımızın iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının, torpaq vergisi istisna olmaqla, uzun illərdir bütün vergilərdən azad edildiyini nəzərə alsaq, bu, çox ciddi artımdır.

2003-cü ilin göstəricisi ilə müqayisədə regionlar üzrə vergi daxilolmalarının qeyri-neft sektoru üzrə daxilolmalardakı xüsusi çəkisi 3,9 bənd artaraq 12,4 faiz təşkil edir ki, bu da regionlarda sahibkarlığın inkişafının daha bir bariz göstəricisidir.

Xüsusi vurğulamaq istərdim ki, dövlət proqramlarının uğurlu icrasının nəticəsi olaraq, bu gün artıq respublikanın 6 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırır və qarşıya qoyulmuş əsas hədəflərdən biri gələcəkdə bunların sayının artırılmasıdır. İndi respublika üzrə qeydiyyatda olan vergi ödəyicilərinin 61,6 faizi regionların payına düşür.

***- 2016-cı ilin 8 ayı ərzində regionlar üzrə proqnoz tapşırıqlarının icrası necə olub?***

- Regionların inkişaf tendensiyası cari ilin 8 ayında da davam edib və bu, vergi daxilolmalarında da özünü göstərir. Yanvar-avqust aylarında ərazi vergi orqanları üzrə 364,5 milyon manat proqnoza qarşı dövlət büdcəsinə 381,1 milyon manat vəsait daxil olub ki, bu da proqnoz tapşırığının 16,6 milyon manat artıqlaması ilə və ya 104,6 faiz icra olunması deməkdir. Xüsusilə qeyd etmək lazımdır ki, proqnoz tapşırıqları yalnız ümumilikdə regionlar üzrə deyil, həm də respublikanın ayrı-ayrılıqda bütün şəhər və rayonları üzrə yerinə yetirilib.

Daxilolmaların strukturuna gəlincə, daxil olmuş vergilərin 61,2 faizi ƏDV, mənfəət və gəlir vergisi hesabına formalaşıb. Sadələşdirilmiş vergi daxilolmaları üzrə proqnoz tapşırıqları 6,2 milyon manat artıq və ya 117,2 faiz icra olunmaqla yanaşı, ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faizə qədər artıb. Regionlarda fəaliyyət göstərən və mərkəzləşdirilmiş qaydada vergi uçotunda olan vergi ödəyiciləri tərəfindən ilin ilk səkkiz ayında 86,7 milyon manat məbləğində vergilərin yerli büdcələrə ödənilməsi təmin edilib.

Əlbəttə, bütün bu göstəricilər həyata keçirilən islahatların, iqtisadi sistemin şəffaflaşmasının, əlverişli biznes mühitinin formalaşmasının, sahibkarlıq subyektlərinin də cəlbediciliyin artırılmasının nəticəsidir. 2016-cı ilin yanvar-avqust ayları ərzində regionlarda ƏDV qeydiyyatına alınmış vergi ödəyicilərinin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz artım qeydə alınıb.

***- Yaranmış yeni iqtisadi şəraitdə ölkədə sahibkarlığın inkişafı istiqamətində atılan addımlar barədə nə deyə bilərsiniz?***

- 2014-cü ilin sonundan başlayaraq neftin qiymətində kəskin enmə, 2015-ci ildə dünyada mövcud olan geosiyasi vəziyyət və bundan irəli gələn iqtisadi problemlər, təbii ki, dünyanın bir hissəsi olan Azərbaycanın iqtisadiyyatından da yan keçməyib. Bu problemin aradan qaldırılması üçün yeni yaranmış iqtisadi vəziyyətdə qeyri-neft sektorunda genişmiqyaslı islahatlara başlanılıb. İndi sahibkarlığın inkişafı yönündə çox ciddi addımlar atılır.

Sahibkarlıqda xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, onların verilməsi prosedurları sadələşdirilib və bu proseslərin «ASAN xidmət» mərkəzlərində verilməsinə başlanılıb. Bundan başqa, lisenziyalar müddətsiz verilməklə regionlarda dövlət rüsumlarının ödənilməsinə 50 faizədək güzəştlər tətbiq olunub. Regionlardakı vergi ödəyicilərinin sadələşdirilmiş vergini Bakıda fəaliyyət göstərən vergi ödəyiciləri kimi 4 faiz deyil, 2 faiz dərəcəsi ilə ödəmələri onların fəaliyyətlərini stimullaşdırmaq məqsədi daşıyır. İlin əvvəlindən ticarət və ictimai iaşə sektorunda çalışan vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması üçün Vergi Məcəlləsinə dəyişiklik edilərək, ticarət və ictimai iaşə sahəsində dövriyyəsi 200.000 manatdan yuxarı olan sahibkarlara öz seçimləri əsasında sadələşdirilmiş vergi ödəyicisi hüququ verilib.

Xüsusi qeyd etmək istərdim ki, Azərbaycanda sahibkarlığın inkişafı, bu sahəyə nəzarətin gücləndirilməsi, iş adamlarının hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Apelyasiya Şuralarının yaradılması sahibkarlığın inkişafına təkan verən mühüm addımlar kimi qiymətləndirilməlidir.

***- Vergilər Nazirliyi tərəfindən aparılan vergi nəzarəti tədbirlərinin sayının azaldılması sahibkarlıq subyektlərinə və ərazi vergi orqanlarının fəaliyyətinə necə təsir göstərib?***

- İqtisadiyyatın şaxələndirildiyi və qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi yeni mərhələdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə dövlət başçısının müvafiq fərmanları ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb. Həmin fərmanlarda vergi yoxlamaları istisna hesab edilsə də, Vergilər Nazirliyinin kollegiyasının qərarına əsasən, həmin müddətdən sadələşdirilmiş vergi ödəyicilərində səyyar vergi yoxlamalarının aparılması da dayandırıldı. Bunun nəticəsi olaraq, kiçik və orta sahibkarlıq subyektlərində keçirilən vergi nəzarəti tədbirlərinin sayı regionlarda da minimumlaşdırılıb və ilin ilk səkkiz ayı ərzində həyata keçirilən səyyar vergi yoxlamalarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə, operativ nəzarət tədbirlərinin sayı isə 6 dəfəyə yaxın azalıb.

Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək məqsədilə vergi orqanlarının həyata keçirdiyi vergi nəzarəti tədbirlərindən biri də kameral vergi yoxlamasıdır. Vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılmış islahatlar çərçivəsində risklərin idarə edilməsi sistemi yaradılıb. Beynəlxalq təcrübələr əsasında yaradılmış bu sistem nəzarətin səmərəli aparılmasına imkan verir. Müasir texnologiyalara əsaslanan «risklərin idarə edilməsi» aləti vergidən yayınma hallarını aşkar etməklə mövcud riskləri elektron qaydada idarə olunmasını, daha dəqiq qiymətləndirilməsini və vergi potensialının düzgün nəzərə alınmasını təmin edir. Qeyd edim ki, kameral vergi yoxlamalarının sayının azalmasına baxmayaraq, onların keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirilir. Vergi ödəyicisinin fəaliyyətinə müdaxilə etmədən mövcud informasiya bazası və əlaqəli məlumatlar əsasında «risklərin idarə edilməsi» aləti vasitəsilə təhlil olunmuş məlumatlar sayəsində ərazi vergi orqanları tərəfindən aparılmış kameral hesablamalar üzrə reallaşma faizi ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 bənd artmışdır.

***- Azərbaycan Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamı əsasında nəzərdə tutulan yeni islahatlar ərazi vergi orqanları ilə işə necə təsir göstərəcək?***

- Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, son 10 ildə vergi ödəyicilərinin sayının əhəmiyyətli dərəcədə artması, eləcə də regionlarda həyata keçirilən dövlət proqramları nəticəsində yeni vergitutma mənbələrinin yaranması, iqtisadiyyatın indiyədək vergitutma bazasına cəlb edilməmiş ayrı-ayrı sahələrinin, o cümlədən rəqəmsal iqtisadiyyatın inkişafı vergi orqanları qarşısında yeni vəzifələr qoyur. Vergitutma bazasının genişləndirilməsi, büdcəyə daha çox vəsait toplanması üçün mövcud ehtiyatların aşkarlanması, bu sahədə vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı dövlət başçısının konkret tapşırıqlarının nəticəsi olaraq, vergi sistemində ciddi islahatlar həyata keçirilir. Ölkə Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sisteminin inkişafına, xüsusilə də vergi inzibatçılığının səmərəliliyinin artırılması sahəsində yeni bir mərhələ açır.

Sərəncama əsasən, vergi sahəsində aparılacaq islahatların 21 əsas istiqaməti müəyyən edilib ki, bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, intizamlı vergi ödəyicilərinin müəyyənləşdirilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir. Sərəncamın icrası vergi sistemində, o cümlədən ərazi vergi orqanlarında islahatların davam etdirilməsinə və vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə yeni bir təkan verib.

***- Vergi mədəniyyətinin formalaşması vergilərin düzgün hesablanmasına, dövlət büdcəsinə tam və vaxtında köçürülməsinə təsir edən amillərdəndir. Ərazi vergi orqanları tərəfindən vergi ödəyicilərinin məlumatlandırılması sahəsində hansı işlər görülür?***

- Vergi qanunvericiliyində edilmiş dəyişikliklər, eləcə də həyata keçirilən islahatlar, həmçinin vergi sistemində aparılan şəffaflaşdırma tədbirləri barədə vergi ödəyicilərini məlumatlandırmaq, bu sahədə sahibkarların qarşılaşdıqları problem və çətinliklərlə yerindəcə tanış olmaq Baş İdarənin fəaliyyətinin əsas istiqamətlərindəndir.

Vergi Məcəlləsinə cari ilin əvvəlində edilmiş dəyişikliklərin mahiyyətini vergi ödəyicilərinə izah etmək məqsədilə nazirliyin vəzifəli şəxslərindən ibarət qruplar tərəfindən mart ayında bütün regionlarda görüşlər təşkil edilib. Keçirilən tədbirlərdə sahibkarların nəzərinə çatdırılıb ki, sahibkarlığa dövlət dəstəyi gücləndirilir, xüsusilə də sahibkarlığın inkişafına mane olan əngəllərin aradan qaldırılması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür və yeni iqtisadi şəraitdə ölkəmizin bundan sonrakı inkişafı əsasən sahibkarlığın inkişafından asılı olacaq. İndi ölkəmizdə daha əlverişli biznes mühiti formalaşıb və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində bütün zəruri tədbirlər görülüb. Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə sahibkarlara ətraflı məlumat verilib, onlara izah edilib ki, bu dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınması, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına şərait yaradır. Çoxsaylı görüşlər zamanı vergi ödəyiciləri ilə geniş fikir mübadiləsi aparılır, onları maraqlandıran suallar cavablandırılır.

# Vergi mədəniyyətinin formalaşmasında medianın rolu

**Sentyabrın 8-də Vergilər Nazirliyində «Vergilər» qəzetinin təşkilatçılığı ilə «Vergi mədəniyyətinin yüksəldilməsində medianın rolu» mövzusunda «dəyirmi masa» keçirilib. Tədbirdə Vergilər Nazirliyinin struktur vahidlərinin rəhbər vəzifəli şəxsləri, kütləvi informasiya vasitələrinin və jurnalistlərin ictimai birliklərinin nümayəndələri, o cümlədən Demokratik Jurnalistlər Liqası, «Yeni Azərbaycan», «İki sahil», «Kaspi», «Vergilər» qəzetləri, «Trend.az» və «Fins.az» informasiya agentliklərinin əməkdaşları iştirak ediblər.**



***Vergilərə dair məlumatların sosial şəbəkələrdə yayılması əhəmiyyətlidir***

Tədbiri giriş nitqi ilə açan «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev bildirib ki, ölkəmizin vergi sistemində həyata keçirilən geniş islahatlar, qanunvericilikdə davamlı olaraq aparılan dəyişikliklər, vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin artırılması, sahibkarlarla vergi orqanları arasında münasibətlərin günün tələblərinə uyğun təkmilləşdirilməsi ölkə KİV-nin, ümumilikdə ictimaiyyətin daimi diqqət mərkəzindədir. Vergilər Nazirliyi vergi sahəsində baş verən bütün yeniliklərin ölkənin aparıcı media orqanlarının köməyi ilə cəmiyyətə təqdim olunmasına böyük önəm verir. Mətbuat öz səhifələrində davamlı olaraq ölkəmizin sosial-iqtisadi həyatı, vergi sistemində həyata keçirilən islahatlar barədə aktual, analitik materiallara geniş yer ayırır, vergi mədəniyyətinin formalaşmasında, vətəndaşların vergiyə aid biliklər əldə etməsində mühüm rol oynayır. Vergi-KİV münasibətlərinin açıq dialoq müstəvisinə çatması müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılmasında aparıcı yer tutur. Vergilər Nazirliyi həmişə media ilə açıq dialoq qurur, həyata keçirilən vergi islahatları ilə bağlı geniş fikir mübadiləsi aparır, KİV vasitəsilə cəmiyyətin rəy və təkliflərini, insanları düşündürən, narahat edən məsələləri öyrənir. Bu, nazirliyin KİV-ə verdiyi böyük önəmin nümunəsidir.

Vergi mədəniyyətinin formalaşmasında vergi ödəyicilərinin məcburi vergi yığımlarından könüllü vergi ödəmələrinə keçməsi mühüm amillərdəndir. Azərbaycanda bu rəqəm artıq 70 faizdən yuxarıdır. Vergi mədəniyyətini inkişaf etdirmək üçün Vergilər Nazirliyinin üzərinə mühüm vəzifə düşür. Vergi orqanları vergi ödəyiciləri arasında vergi mədəniyyətini yüksəltmək məqsədilə təbliğat, məlumatlandırma və maarifləndirmə işini gücləndirir. Bununla yanaşı, vergi mədəniyyətinin yüksəlməsində cəmiyyətin bütün üzvləri fəal olmalıdır. Bu sahədə medianın rolu xüsusi əhəmiyyət kəsb edir.

A.Əliyev qeyd edib ki, vergi mədəniyyətinin formalaşmasında Vergilər Nazirliyinin rəsmi internet saytı və «Vergilər» qəzeti mühüm rol oynamaqdadır. «Vergilər» qəzetinin təşkilatçılığı ilə davamlı şəkildə «dəyirmi masa»lar təşkil olunur və bugünkü tədbirin də əsas məqsədi vergilər sahəsində görülən işlərin və qarşıdakı dövrdə həyata keçirilməsi nəzərdə tutulan islahatların KİV-in köməkliyi ilə cəmiyyətə daha geniş formada təqdim edilməsindən ibarətdir.

**Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli** Vergilər Nazirliyinin mətbuat üçün açıq və şəffaf qurum olduğunu önə çəkərək bildirib ki, vergi mədəniyyəti vergi sisteminin inkişaf göstəricisidir. Büdcə gəlirlərinin artırılması üçün vergi təbliğatının gücləndirilməsi, vergilərin hara və niyə xərclənməsi barədə həmin vergiləri ödəyənlərin daha ətraflı məlumatlandırılması, bu sahədə şəffaflığın təmin edilməsi ilə bağlı nazirliyin həyata keçirdiyi layihələr böyük əhəmiyyət daşıyır və həmin islahatların cəmiyyətə təqdim edilməsində internet medianın rolunun artırılması vacibdir. Hazırda sosial şəbəkələr sisteminin inkişafı informasiya axınının bu mənbədən alınmasına səbəb olur, insanlar informasiyanı əldə etmək üçün ənənəvi mediaya deyil, internet mediaya daha çox üstünlük verirlər. Vergi ilə bağlı məlumatların, aparılan islahatların istiqamətləri və qanunvericiliyə edilmiş dəyişikliklərin şərhinin sosial şəbəkələrdə çoxaldılması əhəmiyyətli ola bilər. Vergi orqanları aparılan yeniliklərin interaktiv şəkildə cəmiyyətə çatdırılması istiqamətində daha çox çalışmalıdırlar. Bir çox Avropa ölkələrində vergi mədəniyyətini formalaşdırmaq üçün vergi orqanları medianın və internet resurslarının fəaliyyətindən stimullaşdırıcı vasitə kimi istifadə edilir. Müxtəlif dialoqlar, tok-şoular, vergi ödəyiciləri ilə üzbəüz müsahibə metodlarından istifadə olunmalı, vergi orqanlarının sosial şəbəkələrə açıq çıxışı təmin edilməli və vətəndaşların ünvanladığı suallar onlayn cavablandırılmalıdır. Bu, vergi mədəniyyətinin yüksəldilməsində, vergi təbliğatının təsirinin artmasında faydalı ola bilər.

***İnformasiya açıqlığına görə lider səhifə...***

**Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin şöbə rəisi Azər Şirinov** cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər Nazirliyinin hər zaman mətbuata açıq olduğunu qeyd edib. Bildirib ki, vergi mədəniyyətinin formalaşması istiqamətində həyata keçirilən işlərdə KİV-in, eləcə də ictimaiyyətin dəstəyinə hər zaman ehtiyac duyuruq. Əhaliyə informasiyanın çatdırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi maarifləndirmə tədbirlərindən söz açan şöbə rəisi əlavə edib ki, bu işlər xüsusi məlumatlandırma kanalları vasitəsilə həyata keçirilir: «Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az), «Facebook», «Twitter» sosial şəbəkələrdəki səhifələrində, «Youtube» videohostinq serverində vergi orqanlarının fəaliyyəti, vergi inzibatçılığında baş verən yeniliklər barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi şəkildə həyata keçirilir. Nazirliyin rəsmi internet saytı informasiya əldə etmək baxımından olduqca zəngindir. Deyə bilərəm ki, dövlət qurumları arasında daha aktiv, məlumatlarla daha zəngin sayt Vergilər Nazirliyinin saytıdır. Vergi ödəyiciləri, cəmiyyətin istənilən təbəqəsi bu sayt vasitəsilə vergilərlə bağlı özünə lazım olan bütün zəruri məlumatları əldə edə bilərlər. Hətta saytda informasiyalar kifayət qədər çox olduğundan rəsmi səhifəyə daxil olan istifadəçilərin axtardıqları məlumatların tez və rahat tapılması üçün «Onlayn bələdçi» xidməti də istifadəyə verilib. Görülən işlər sayəsində informasiya açıqlığına görə dövlət qurumlarının rəsmi internet resurslarının monitorinqinin nəticələrinə əsasən, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi ardıcıl olaraq 7 il birinci yerə layiq görülüb».

## Vergilər Nazirliyi ilə mətbuat arasında açıq dialoqun qurulması cəmiyyətdə şəffaflığın artırılması baxımından mühüm əhəmiyyət daşıyır, vergi sisteminin və vətəndaşlarda vergi mədəniyyətinin formalaşmasında müstəsna rol oynayır

**Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin əməkdaşı Günel Mahmudova** nazirliyin sosial şəbəkələrdəki fəaliyyətinə toxunaraq, bu sahədə aktivliyin olduğunu qeyd edib: «Bu gün Vergilər Nazirliyinin «Facebook» səhifəsi ən aktiv səhifələrdən biridir. İzləyici sayı hazırda 40 mindən çox olan «Facebook» sosial şəbəkəsinə hər gün yeni maarifləndirici material yerləşdiririk. Nazirliyin rəsmi internet səhifəsində materiallar rəsmi formada yerləşdirildiyi halda, bu sosial şəbəkə vasitəsilə informasiyalar bir qədər fərqli, daha çox istifadəçilərin marağına uyğun formada çatdırılır.

«Azad Azərbaycan» teleradio şirkəti ilə Vergilər Nazirliyinin birgə layihəsi olan həftəlik telelayihədən - «İqtisadi zona» verilişindən söz açan G.Mahmudova verilişdə ölkədə baş verən ən vacib iqtisadi yeniliklərin geniş tamaşaçı kütləsinə çatdırılması ilə yanaşı, vergilərin təbliğinə xidmət edən, vergi ödəyiciləri ilə münasibətləri daha da asanlaşdıran məlumatlandırıcı və maarifləndirici süjetlərin nümayiş etdirildiyini diqqətə çatdırıb.

***Vergi mədəniyyətinin artması könüllü vergi əməletməsinə səbəb olur***

**Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanov** nazirliyin həyata keçirdiyi islahatlara toxunaraq bildirib ki, Vergilər Nazirliyinin Çağrı Mərkəzinin və Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin fəaliyyəti, elektron bəyannamələrin və «bir pəncərə» sisteminin, elektron vergi hesab-fakturasının, elektron auditin tətbiqi, vergi ödəyicilərinə məsafədən nəzarət imkanları və ASAN imza sertifikat xidmətləri mərkəzlərinin yaradılması ilə bağlı ictimaiyyət arasında geniş maarifləndirmə işləri aparılıb. Nazirlik həyata keçirdiyi bu islahat tədbirləri ilə kifayətlənmir, çünki iqtisadi şərait dəyişdikcə vergi ödəyicilərinin tələbi də dəyişir: «Vergi ödəyicilərinə göstərilən xidmətlərin əhatə dairəsini daha da artırmaq vergi orqanları qarşısında əsas hədəflərdəndir. «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında ölkə Prezidentinin sərəncamı vergi yükünün azaldılmasını, vergi ödəyicilərinə xidmətin daha yüksək səviyyəyə qaldırılmasını, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsini və inzibatçılığın təkmilləşdirilməsini əhatə edir. Sərəncama əsasən, vergi sahəsində 21 istiqamət üzrə islahatlar aparılmalıdır. Bu gün Vergilər Nazirliyinin islahatlara getməsində əsas məqsəd vergi ödəyiciləri üçün əlverişli vergi mühiti yaratmaqdır».

Qeyd edilib ki, islahatların əsas məqsədi kiçik və orta sahibkarlığın stimullaşdırılması, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi sahəsində şəffaflığın təmin olunması, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, vergitutma bazasının genişləndirilməsi, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi və s.-dir.

Vergi sahəsində aparılacaq islahatlardan biri olan ictimai məlumatlandırma mexanizminin tətbiqindən söz açan idarə rəisi bildirib ki, hər bir cəmiyyət öz- özlüyündə ictimai nəzarəti həyata keçirməlidir. Vergidən yayınmalar olarsa, bu barədə məlumat verilməlidir. Onun sözlərinə görə, bu sistemin tətbiqi vergidən yayınma barədə məlumat verən şəxslərin mükafatlanmasını nəzərdə tutur.

Vergi mədəniyyətinin formalaşmasının əsas göstəricilərindən biri cəmiyyətdə vergiləri könüllü ödəmə vərdişinin yaradılmasıdır. Çünki vergi mədəniyyəti nə qədər yüksək olarsa, könüllü əməletmə səviyyəsi də o qədər geniş olar: «İslahatlara əsasən, vergi ödəyicilərinin vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanması nəzərdə tutulub və artıq bununla bağlı layihə də işlənib. Könüllü əməletmə sisteminə, şəffaflığa doğru addım kimi nağdsız əməliyyatları da stimullaşdırmalıyıq. Bu sahədə digər dövlət orqanlarının, KİV-in dəstəyi çox vacibdir. Nağdsız əməliyyatların genişlənməsinə doğru ciddi addım atılmalıdır. Nağdsız formada nə qədər çox əməliyyatlar həyata keçirilərsə, nəzarət tədbirləri də bir o qədər azalar və bu, dövlət büdcəsinə çatacaq vergilərin vaxtında yığılmasına gətirib çıxaracaq».

N.İmanov bildirib ki, islahatlar paketinə əsasən, e-ticarətə yeni vergi mexanizminin tətbiqi nəzərdə tutulur və qanunvericilikdə buna uyğun müəyyən dəyişikliklər aparılacaqdır: «Bunun üçün təcrübəli mütəxəssizlərlə də görüşlər keçirmişik, beynəlxalq təcrübə araşdırılıb. Məlum olur ki, e-ticarətdə kifayət qədər böyük dövriyyə var və bu dövriyyənin vergiyə cəlb edilməsi labüddür. Ona görə ki, eyni fəaliyyəti fiziki olaraq həyata keçirən şəxslər vergiyə cəlb olunduğu halda, həmin şəxsləri vergi nəzarətindən kənarda qoymaq diskriminasiya yaradar və rəqabət mühitinin pozulmasına gətirib çıxara bilər».

İdarə rəisi «Tax free» sisteminin bütün sərhəd məntəqələrində tətbiqindən, vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydasından, Azərbaycan ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsindən, elektron qaimə-faktura sistemi ilə bağlı aparılacaq islahatların geniş spektri barədə də ətraflı məlumat verib.

***Vergi islahatlarının təbliğində mətbuatın rolu çox əhəmiyyətlidir***

**Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin idarə rəisi Fərid Cəbrayıl** cəmiyyətdə iqtisadi biliklərin lazımi səviyyədə formalaşmaması məsələsini diqqət mərkəzinə çəkdi. Onun sözlərinə görə, cəmiyyət üzvləri arasında bəzi insanlar belə düşünürlər ki, büdcə elə neftdən ibarətdir və neft olmasa büdcə də yoxdur: «Bu, tamamilə yanlış təsəvvürdür və media insanlarda bu fikri «sındırmalıdır». Azərbaycanda büdcə, əsasən, vergilərdən formalaşdığı üçün media cəmiyyətə aşılamalıdır ki, əməkhaqlarının, pensiyaların, təqaüd və müavinətlərin verilməsi, müəllimlərin, həkimlərin və büdcədən maliyyələşən digər işçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, ordumuzun qüdrətinin artması, iqtisadiyyatın müxtəlif sahələrinə və sahibkarlara güzəştli kreditlərin ayrılması və s. tədbirlər məhz insanların ödədiyi vergilər hesabına mümkün olur».

İnkişaf etmiş əksər Avropa ölkələrində dövlət büdcəsinin 80 faizinin vergi-gömrük yığımlarının hesabına formalaşdığını vurğulayan F.Cəbrayılın sözlərinə görə, Azərbaycanda artıq bu istiqamətdə mühüm irəliləyişlər var və büdcənin əhəmiyyətli hissəsi məhz vergi daxilolmalarından ibarətdir. Vergi ödənişləri, könüllü əməletmə nə qədər yüksək olarsa, büdcəyə daxilolmalar o qədər artmış olar və nəticədə sosial-iqtisadi vəziyyət daha da yaxşılaşar. Bütün bu məqsədlərə çatmaq üçün cəmiyyətin vergi mədəniyyətinin yüksək olması mühüm şərtlərdəndir. Vergi orqanlarının da əsas məqsədlərindən biri vergini ödəməyin hər kəsin mənəvi borcu və vergilərin gələcəyə qoyulan sərmayə olduğunu təbliğ etmək, vergi mədəniyyətinin aşılanması işində KİV-in roluna diqqəti artırmaqdır.

**«İki sahil» qəzetinin baş redaktor müavini İsmayıl Hacıyev** bildirib ki, Vergilər Nazirliyi ilə mətbuat arasında açıq dialoqun qurulması cəmiyyətdə şəffaflığın artırılması baxımından mühüm əhəmiyyət daşıyır, vergi sisteminin və vətəndaşlarda vergi mədəniyyətinin formalaşmasında müstəsna rol oynayır. Ölkə mətbuatı təkcə informasiya verməklə, ictimai rəy formalaşdırmaqla kifayətlənməməli, xalqın maarifləndirməsində, dövlətin iqtisadi siyasətinin əsas mahiyyətinin cəmiyyətə çatdırılmasında, insanları düşündürən problemlər haqqında məlumatın verilməsində fəal iştirak etməlidir. Vergi sahəsində geniş islahatların aparıldığı indiki dövrdə isə mətbuatın üzərinə daha ciddi məsuliyyət düşür.

***Məlumtların cəmiyyətə çatdırılmasında yeni metodlar tətbiq edilməlidir***

**«Fins.az» İnformasiya Agentliyinin redaktoru Əli Əhmədov** vergi mədəniyyətini formalaşdırmaq üçün müxtəlif stimullaşdırıcı vasitələrin təşkil edilməsini, Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin media ilə debat və açıq müzakirələrdə, interaktiv sorğularda iştirakının vacibliyini diqqətə çatdırıb. Bildirib ki, vergi sistemində həyata keçirilən islahatların miqyası, görülən işlər digər dövlət qurumları ilə müqayisədə xeyli çoxdur, nazirlik 10 ilə yaxındır ki, elektron xidmətlər göstərir, Azərbaycan e-bəyannamələrin tətbiqinə görə MDB-də ən qabaqcıl ölkədir: «Amma bəzi hallarda bu mütərəqqi yeniliklər cəmiyyətə geniş şəkildə təqdim olunmur. Ona görə də bu yeniliklərin ictimaiyyətə çatdırılmasının yeni formatı tətbiq edilməli, vergi orqanı əməkdaşları media qarşısına çıxaraq aparılan islahatların mahiyyəti barədə ətraflı məlumat verməli, sahibkarların və vətəndaşların görmək istədiklərini interaktiv formada cavablandırmalıdır.

Bu kimi tədbirlər cəmiyyətdə vergi ödəmək vərdişinin möhkəmlənməsinə, vergidən yayınma hallarının qarşısının alınmasına və vergilərin könüllü ödəmə səviyyəsinin yüksəlməsinə müsbət təsirini göstərə bilər».

**«Trend» İnformasiya Agentliyinin redaktoru İlahə Xəlilova** bildirib ki, büdcə gəlirlərinin artırılması üçün vergi təbliğatının gücləndirilməsi, vergilərin hara və niyə xərclənməsi barədə vətəndaşların ətraflı məlumatlandırılması, bu sahədə şəffaflığın təmin edilməsi mühüm rol oynayır. O, məlumatların cəmiyyətə çatdırılmasında yeni innovativ metodların tətbiqi, medianın məlumatların əldə edilməsi prosesinin daha da asanlaşdırılması üçün əlavə addımların atılmasını təklif edib.

*Hazırladılar:* **Elbrus CƏFƏRLİ**
**Aytən NƏBİYEVA**

**ELAN**

Hörmətli vergi ödəyicisi!

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV bəyannaməsinin müddəti

***Müəssisə 15 mart 2016-cı il tarixdə satılmış mallara görə alıcıya 16 mart 2016-cı il tarixində elektron vergi hesab-fakturası vermişdir. E-VHF üzrə ödəniş 10 aprel 2016-cı il tarixdə olmuşdur. Bu əməliyyat hansı ayın ƏDV bəyannaməsinə daxil edilməlidir?***

Vergi Məcəlləsinin 166.1-ci maddəsində qeyd olunmuşdur ki, bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) təqdim olunduqdan sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə və ödəmə 30 gün ərzində həyata keçirilmirsə, vergi tutulan əməliyyatın aparıldığı vaxt malların (işlərin, xidmətlərin) göndərildiyi və ya təqdim edildiyi vaxt hesab olunur.

**Qeyd olunanlara əsasən:**

Mallar təqdim olunduqdan sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilməli, elektron vergi hesab-fakturasında göstərilən məbləğ 30 gün müddətində ödənildiyi halda vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV tutulan əməliyyatın vaxtı ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Sorğuda göstərilən halda təqdim edilmiş mallara görə verilmiş elektron vergi hesab-fakturası üzrə ödəniş (30 gün müddətində) aprel ayında həyata keçirildiyindən, bu əməliyyat üzrə hesablanan ƏDV məbləği aprel ayının ƏDV bəyannaməsində əks etdirilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz




# Vergi bəyannamələrinin 95 faizi elektron formada göndərilir

Azərbaycanda vergi bəyannamələrinin elektron formada göndərilməsinə 2007-ci ildən başlanmışdır. Vergi ödəyicilərinin bəyannamələri elektron formada təqdim etməsinə şərait yaratmaq üçün İnternet Vergi İdarəsində (e-taxes.gov.az), habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi Bəyannamə Tərtibatı Proqramı (BTP) yaradılmışdır. Bununla da vergi ödəyiciləri vergi orqanından istifadəçi kodu, şifrə və parol almaqla elektron formada bəyannamə göndərmək hüququnu əldə etməklə, vergi orqanındakı qeydiyyat məlumatları və büdcə qarşısındakı öhdəlikləri ilə tanış olmaq imkanı qazanmışlar.

2009-cu ildən sadələşdirilmiş vergi bəyannaməsinin BTP proqramından istifadə etmədən onlayn rejimdə İnternet Vergi İdarəsi vasitəsilə tərtib edilməsi və göndərilməsinə imkan yaradılmışdır. Bundan əlavə, Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq olunmuş siyahıya dəyişiklik edilərək, Vergilər Nazirliyi tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısına «Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» xidməti əlavə olunmuşdur.




Çağrı Mərkəzi tərəfindən AVİS-də «Sadələşdirilmiş verginin bəyannaməsi» elektron formada tərtib edilərək gücləndirilmiş elektron imza vasitəsilə təsdiqlənmək üçün vergi ödəyicisinə təqdim olunur, məlumatların doğruluğu təsdiqləndikdən sonra isə bəyannamə vergi orqanına göndərilir və bu barədə vergi ödəyicisinin mobil telefonuna mesaj daxil olur. 2013-cü ildən etibarən isə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi fəaliyyətə başlamış və bununla da bütün mövcud e-xidmətlər kimi, bəyannamələrin də elektron formada göndərilməsində ASAN imzadan (mobil imza) istifadə mümkün olmuşdur.

### Vergi bəyannamələrinin elektron formada göndərilməsinin üstünlükləri

Vergi bəyannamələrinin elektron formada təqdim edilməsi vergi inzibatçılığında təkmilləşməyə, iş həcminin azalmasına gətirib çıxarmışdır. Elektron bəyannamələrin tətbiqi həm də vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsinə, e-xidmətlərdən istifadənin kütləviləşməsinə səbəb olmuşdur.

Vergi bəyannamələrinin elektron formada vergi orqanına göndərilməsinin üstünlüklərinə gəldikdə isə, vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasa girmədən, tam şəffaf şəkildə, özünə rahat mühitdə və zamanda bəyannaməni internet vasitəsilə təqdim edə bilər. Bəyannamənin tərtibinə və düzgünlüyünün yoxlanılmasına proqram təminatı vasitəsilə kömək göstərilir. Bəyannamələr elektron formada saxlanılır, vergi ödəyicisinə öz şəxsi hesab vərəqəsinə baxa bilmək, büdcəyə olan borcları barədə məlumatlar əldə etmək imkanı yaradılır.

### Maarifləndirmənin müsbət nəticələri

Bəyannamələrin vaxtında, o cümlədən elektron formada vergi orqanına təqdim edilməsi istiqamətində vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyicilərinə hərtərəfli şərait yaradılır. Vergi ödəyiciləri həm xidmət mərkəzlərinə müraciət etməklə onlara xidmət göstərən təmsilçilərin köməyindən yararlana, həm də orada quraşdırılmış özünəxidmət kompüterlərindən istifadə edə bilirlər. Vergi ödəyicilərinin əksəriyyəti bəyannamələrini internet üzərindən sərbəst şəkildə tərtib edib vergi orqanına göndərirlər. Bunun üçün nazirliyin internet saytında bütün vergi bəyannamələrinin elektron formada göndərilməsini izah edən videotəlimat da yerləşdirilmişdir. Ümumiyyətlə, vergi orqanları tərəfindən bu istiqamətdə mütəmadi olaraq geniş məlumatlandırma və izahat işləri aparılır, vergi ödəyiciləri ilə görüşlər keçirilir. Vergi bəyannamələrinin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin vaxtında ödənilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən hazırlanmış xüsusi bildiriş və elan formaları vergi ödəyicilərinə göndərilir, kütləvi informasiya vasitələrində elanlar yayımlanır. Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və «195» Çağrı Mərkəzi vasitəsilə vergi ödəyiciləri məlumatlandırılır, bəyannamələrin vaxtında təqdim edilməsi məqsədilə onların telefon nömrələrinə mesajlar göndərilir.

Vergilər Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində vergi bəyannamələrinin vaxtında təqdim edilməsi səviyyəsi də yüksəlmişdir. Müqayisə üçün bildirək ki, 2003-2004-cü illərdə bəyannamələrin vaxtında təqdim olunması səviyyəsi 70-75 faiz təşkil etdiyi halda, 2013-cü ildən bəri hər il bu rəqəm 90 faizdən yüksək olmuşdur. Elektron xidmətlərdən istifadənin üstünlükləri barədə aparılan təbliğat və izahat işləri nəticəsində bəyannamələrin elektron qaydada təqdim edilməsi səviyyəsi də yüksəlmişdir. 2013-cü ildə bəyannamələrin 93,4 faizi, 2014-cü ildə 91,6 faizi, 2015-ci ildə 94,9 faizi, 2016-cı ilin yanvar-avqust aylarında isə 94,6 faizi elektron formada təqdim edilmişdir.

Qeyd edək ki, vergi ödəyicilərinin və eyni zamanda bəyannamə təqdim etməli olan vergi ödəyicilərinin sayının xeyli artmasına baxmayaraq, bəyannamələrin vaxtında təqdim edilmə səviyyəsinin əvvəlki illərlə müqayisədə yüksək olması artıq vergi ödəyicilərinin bu barədə kifayət qədər məlumatlı olduqlarını göstərir.

### Vergi bəyannamələri təkmilləşdirilir

Vergi sisteminin inkişafı çərçivəsində mütəmadi olaraq bəyannamələrin təkmilləşdirilməsi, tərtibatının sadələşdirilməsi həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamının tələblərinə uyğun olaraq Vergilər Nazirliyi tərəfindən «Gəlir vergisinin bəyannaməsi», «Mənfəət vergisinin bəyannaməsi», «Torpaq vergisinin bəyannaməsi», «Əmlak vergisinin bəyannaməsi» və onların tərtib edilmə qaydaları, «Dövlət rüsumunun tutulması haqqında hesabat»ın forması, «Dövlət rüsumunun tutulması haqqında hesabatın tərtib edilməsi qaydası», habelə «Sadələşdirilmiş vergininin bəyannaməsi» və «Əlavə dəyər vergisinin bəyannaməsi»nə, «Xüsusi notariusun gəlir vergisi bəyannaməsinə», «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nə əlavələr və onların tərtib edilmə qaydalarına dəyişikliklər təsdiq edilib. Bu dəyişikliklər vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə, bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi hesabına vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edəcək.




**Aytən NƏBİYEVA**

# Vergi partnyorluğu sazişi qarşılıqlı etibara və şəffaf münasibətə zəmin yaradır

Vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərdə mübahisəli məsələlərin minimuma endirilməsi baxımından vergi partnyorluğu sazişi mütərəqqi yanaşmalardan biri hesab olunur.

### Partnyorluq sazişi ilk növbədə vergi ödəyicilərinin mənafeyinə xidmət edir

Vergi partnyorluğu sazişi - vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı etibara, şəffaflığa və anlaşmaya əsaslanmaqla, vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılan niyyət razılaşmasıdır. Sazişin məqsədləri aşağıdakılardan ibarətdir:

- sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq;
- əməkdaşlığa, qarşılıqlı etibara və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək;
- müasir idarəetmə alətləri tətbiq olunmaqla biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək;
- vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək;
- ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti sistemi yaratmaq;
- vergi risklərini minimallaşdırmaq.

Müşahidələr göstərir ki, partnyorluq sazişini imzalamış vergi ödəyicisi vergi öhdəliklərinə vaxtlı-vaxtında, qanunvericiliyə uyğun şəkildə əməl etməyə çalışır və nəticədə vergi orqanı inzibatçılıq xərclərindən, vaxt itkisindən azad olur. Ən vacibi isə budur ki, saziş vergi ödəyicilərinin fəaliyyətinə müdaxilələrin azalmasına gətirib çıxarır. Sazişi imzalamış vergi ödəyiciləri özlərindən asılı olmayan səbəblərdən yol verdikləri müəyyən xətalara görə müvafiq sanksiyalardan qurtula bilirlər. Bununla yanaşı, partnyorluq sazişini imzalayan sahibkarların vergi orqanlarından zəruri informasiyaları almaq imkanları daha da genişlənir, onlar biznesin inkişafı ilə bağlı gələcəkdə yarana biləcək vergi öhdəlikləri barədə əvvəlcədən məlumatlı olurlar. Sazişin qüvvədə olduğu dövr ərzində vergi orqanı tərəfindən qanunvericilikdə və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə vergi ödəyicisi operativ qaydada məlumatlandırılır, vergi öhdəliklərinin yerinə yetirilməsində ona lazımi metodiki köməkliklər göstərilir.

### Hər bir vergi ödəyicisi partnyorluq sazişi üçün müraciət edə bilər

Nazirlər Kabinetinin təsdiq etdiyi «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları»na uyğun olaraq, hər bir vergi ödəyicisinin partnyorluq sazişi imzalamaq üçün vergi orqanına müraciət etmək hüququ vardır. Sazişin bağlanması üçün vergi ödəyicisi könüllülük prinsipi əsasında vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə» formasını dolduraraq vergi orqanına müraciət edir. Daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edildikdən sonra vergi ödəyicisinə yazılı məlumat verilir.

Sazişin imzalanması zamanı ilk növbədə o vergi ödəyicilərinə üstünlük verilir ki, onların uçot sistemi elektronlaşdırılmışdır. Yəni İKT-nin ən son imkanlarından yararlanan vergi ödəyiciləri həm vergi qanunvericiliyinə tam əməl etmək imkanı qazanır, həm də maliyyə-uçot sistemini şəffaf şəkildə qururlar. Bundan əlavə, sazişin imzalanması zamanı vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, ƏDV ödəyicisi olan, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir. Sənədin imzalanması vergi öhdəliklərinin yerinə yetirilməsinə heç bir təsir göstərmir. Lakin vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyənləşdirildikdə vergi orqanı yazılı məlumat verməklə sazişin bağlanılmasından imtina edir. Sənəd qüvvədə olduğu müddətdə onun şərtlərinə əməl etməyən vergi ödəyiciləri ilə imzalanmış sazişə xitam verilə bilər.

> Partnyorluq sazişini imzalamış vergi ödəyicisi vergi öhdəliklərinə vaxtlı-vaxtında, qanunvericiliyə uyğun şəkildə əməl etməyə çalışır və nəticədə vergi orqanı inzibatçılıq xərclərindən, vaxt itkisindən azad olur

### Müasir iqtisadi yanaşmanın ən yaxşı metodlarından biri...

Azərbaycan Marketinq Cəmiyyətinin sədri Rəhim Hüseynovun fikrincə, vergi partnyorluğu sazişi Vergilər Nazirliyinin təşəbbüsü ilə reallaşdırılmış mühüm yeniliklərdən biri kimi sahibkarların vergi orqanına, dövlətə inamını gücləndirir. Azərbaycan iqtisadiyyatının hazırkı səviyyəsində dünya təcrübəsində özünü doğrultmuş yeniliklərin praktiki şəkildə tətbiqi, ilk növbədə, hökumətin biznesin inkişafına töhfəsidir: «Vergi partnyorluğu sazişinin fəlsəfəsində hər iki tərəfin səmimi əməkdaşlıq etmək, qarşılıqlı öhdəlikləri yerinə yetirmək məramı dayanır. Bu baxımdan, mən bu sənədi «səmimilik sazişi» adlandırardım. Qanundakı bu yenilik göstərir ki, hökumət vergi ödəyicilərinin fəaliyyətinin müasir dövrün tələblərinə cavab verməsində, tamamilə şəffaf, qanunvericiliyin tələblərinə uyğun qurulmasında maraqlıdır». R.Hüseynovun sözlərinə görə, hər hansı mütərəqqi yeniliyin cəmiyyətə dolğun və hərtərəfli şəkildə çatdırılmasında dövlət orqanları ilə yanaşı, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları da yaxından iştirak etməlidir. Təəssüf ki, cəmiyyətdə iş adamlarının böyük bir qismi partnyorluq sazişinin onlara vəd etdiyi üstünlüklərdən xəbərsizdirlər: «Bu baxımdan, hesab edirəm ki, sazişin əsl mahiyyətinin ictimaiyyətə dolğun şəkildə çatdırılması üçün təbliğat işləri gücləndirilməlidir. Azərbaycan Marketinq Cəmiyyəti olaraq biz də bu istiqamətdə üzərimizə düşən işləri yerinə yetirməyə hazırıq».

Özəl vergi məsləhəti xidməti göstərən «İntellektual Hüquq Mərkəzi» MMC-nin nümayəndəsi Akif Osmanov vergi orqanları ilə ödəyicilər arasında münasibətlərin yeni dövrün tələblərinə uyğun qurulması məqsədilə həyata keçirilən məqsədli tədbirləri dəyərləndirdiyini bildirmişdir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlığın yeni formalarının qurulması, ödəyicilərə göstərilən xidmətlərin yeni üsul və vasitələrinin tapılması, bu sahədə yeni yanaşmaların tətbiqi mühüm tədbirlər hesab oluna bilər: «Sahibkarlarla dövlət qurumu arasında müasir iqtisadi yanaşmanın ən yaxşı metodlarından biri də partnyorluq sazişidir. Vergi partnyorluğu xarici ölkələrdə xeyli müddətdir ki, tətbiq olunur. Vergi sisteminə bu yeniliyi gətirmək Vergilər Nazirliyinin çevik islahatlara böyük önəm verdiyinin əyani göstəricisidir».

**Rəşad SADIQOV**

# İntizamlı vergi ödəyiciləri

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında Vergilər Nazirliyinin qarşısına qoyulan vəzifələrdən biri də vergi öhdəliklərini tam və vaxtında yerinə yetirən, vergi qanunvericiliyinə əməl edən intizamlı vergi ödəyicilərinin seçilib fərqləndirilməsi və fəaliyyətlərinin təşviq olunmasıdır.

Bu vəzifənin yerinə yetirilməsi üçün Vergilər Nazirliyinin Kollegiya iclasının qərarı ilə təsdiq olunmuş Qaydalar intizamlı vergi ödəyicisi meyarlarını müəyyənləşdirir. Vergi ödəyicisi kimi qeydiyyatda olmaqla 5 ildən artıq fasiləsiz sahibkarlıq fəaliyyəti ilə məşğul olan, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun aparan və bu barədə vergi orqanına qanunvericiliyə müvafiq qaydada uçot məlumatlarını təqdim edən, əsas fəaliyyətindən fərqli və ya riskli əməliyyatlar apararkən həmin əməliyyatlar nəticəsində hesablana biləcək vergilər barədə müvafiq rəyin alınması üçün yazılı olaraq vergi orqanına müraciət edən və «Vergi partnyorluğu sazişi» imzalayan vergi ödəyiciləri bu siyahıya aid edilir. Bundan əlavə, aparılan vergi və mühasibat uçotu sistemlərinə nəzarətin həyata keçirilməsi üçün daxili audit və risklərin idarə edilməsi sistemlərinə malik olan və ya ölkə qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən müstəqil peşəkar auditor və məsləhətçilərin xidmətlərindən istifadə edən, saxta sənədlər qəbul və təqdim etməyən və ya barəsində iqtisadi fəaliyyət sahəsində olan cinayətlər üzrə cinayət təqibi aparılmayan vergi ödəyiciləri də intizamlı vergi ödəyiciləri hesab edilirlər. Bu siyahıya:

- son 3 il ərzində vergi orqanına təqdim edilmiş vergi hesabatlarında göstərilən vergi məbləğini Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə ödəyən;
- vergi hesabatlarının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə təqdim edilməməsi halı olmayan, təqvim ilini mənfəətlə başa vuran;
- səyyar və ya kameral vergi yoxlamaları nəticəsində hesablanmış vergi məbləğinin vergi hesabatlarında bəyan edilmiş vergi məbləğinin 2 faizindən çox olmayan;
- operativ nəzarət tədbirləri nəticəsində barəsində vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyası və inzibati cərimə tətbiq edilməyən;
- orta aylıq əməkhaqqı məbləği və işçi sayı fəaliyyət göstərdiyi sahə üzrə orta göstəricidən aşağı olmayan;
- vergi riskləri ilə bağlı vergi orqanlarının müraciət və tələblərini qısa müddət ərzində əsaslandırılmış qaydada təkzib edən və ya həmin risklərin dərhal aradan qaldırılmasını təmin edən şəxslər də daxil ediləcək.

Qaydalarda intizamlı vergi ödəyicilərinə verilən imtiyazlar da müəyyən edilib. İntizamlı vergi ödəyicilərinin imtiyazları:

- səyyar vergi yoxlaması keçirilməyəcək;
- vergi orqanlarına edilmiş yazılı müraciətlər 5 gün ərzində cavablandırılacaq;
- vergi ödəyicilərinə xidmət mərkəzlərində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulmuş xüsusi pəncərələrdən istifadə və ya növbə gözləmədən müraciət imkanı təmin ediləcək;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzində yalnız intizamlı vergi ödəyiciləri üçün nəzərdə tutulan xüsusi xətdən istifadə imkanı veriləcək;
- vergi orqanının kütləvi informasiya vasitələrində, o cümlədən rəsmi elektron səhifələrində vergi, ödəyicisinin intizamlı vergi ödəyiciləri siyahısında olması barədə məlumat yerləşdiriləcək;
- vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin onların iştirakı ilə müzakirə edilməsi imkanı veriləcək, ünvanlı səyyar xidmətlər göstəriləcək.

Hər il sentyabrın 15-dək Vergilər Nazirliyi tərəfindən intizamlı vergi ödəyicisi meyarlarına cavab verən vergi ödəyicilərinin siyahısı müəyyən olunaraq vergi ödəyicilərinə xidmət orqanlarına təqdim ediləcək. Vergi ödəyicilərinə xidmət orqanları tərəfindən isə sentyabrın 25-dək həmin siyahı üzrə intizamlı vergi ödəyicisi sertifikatları təqdim ediləcək. Sertifikatlar 3 il müddətinə verilir və sertifikata layiq görülən intizamlı vergi ödəyiciləri həmin müddətdə yuxarıda qeyd olunan imtiyazlardan istifadə hüququna malikdirlər. Sertifikat almış vergi ödəyicisi intizamlı vergi ödəyicisi meyarlarına cavab vermədikdə bu barədə müvafiq məlumat hazırlanaraq vergi ödəyicisinə çatdırılacaq. Göstərilən uyğunsuzluq 10 gün müddətində vergi ödəyicisi tərəfindən aradan qaldırılmadığı halda, sertifikatın ləğv edilməsi barədə 5 gün ərzində vergi ödəyicisinə yazılı məlumat veriləcək. Sertifikatı ləğv edilmiş vergi ödəyicisi isə növbəti 3 il ərzində intizamlı vergi ödəyicisi sertifikatı ala bilməyəcək.

**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Vyanada Azərbaycan Respublikasının Avstriyadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə «Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi» mövzusunda forum keçirilib.

Avropa Statistika Bürosu, BMT-nin Avropa İqtisadi Komissiyası və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən Azərbaycan Respublikası milli statistika sisteminin qlobal qiymətləndirilməsi (xarici audit) keçirilir.

«G20» biznes jurnalının sentyabr nüsxəsi Bakı limanı və onun Avrasiyada nəhəng ticarət və logistika qovşağı olmasından bəhs edir.

Azərbaycan Mərkəzi Bankı makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi, o cümlədən inflyasiyanın məqbul səviyyədə saxlanması və milli valyutaya etimadın gücləndirilməsi istiqamətində kompleks tədbirlər çərçivəsində uçot dərəcəsini 15 faiz səviyyəsinə qaldırmaq barədə qərar qəbul edib.


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqavilənı və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Hesabatların vahid mərkəzdə yerləşdirilməsi maliyyə institutlarından informasiyanın əldə edilməsinə və avtomatik şəkildə mübadiləsinə imkan yaradır



**Vüqar BAYRAMOV**
*İqtisadi və Sosial İnkişaf Mərkəzi İdarə Heyətinin sədri*

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» adlı sənəddə beynəlxalq miqyasda öz təsdiqini tapmış bir sıra mütərəqqi təcrübələrin ölkəmizdə də tətbiqi nəzərdə tutulub. Vergi ödəyicisinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların (GAAR) beynəlxalq təcrübəyə uyğunlaşdırılması planlaşdırılıb. Vergidən yayınma hallarının qarşısını almaq məqsədilə tətbiq edilən qaydalar toplusu olan GAAR müxtəlif formalarda müxtəlif vergi növlərinə tətbiq edilə bilər. Bu toplunun hazırda gəlir vergisinə tətbiqi geniş yayılıb, ƏDV-yə tətbiqi də işlənib hazırlanıb.

GAAR qaydalarının hazırlanması zamanı üç şərt yerinə yetirilməlidir:

- birincisi, hər hansı bir sxem mövcud olmalıdır;
- ikincisi, sxemlə əlaqədar vergi güzəşti təyin edilməlidir;
- üçüncüsü, sözügedən vergi güzəşti vergi ödəyicisinin əsas məqsədi kimi göstərilməlidir.

Kanada təcrübəsinə əsasən, GAAR prinsipindən qabaq qanunvericiliyə əlavə hüquqi tələblər daxil edilə bilər. Mühüm istiqamətlərdən biri «Könüllü vergi açıqlaması» («Voluntary tax disclosure») sistemidir. Vergi öhdəliklərini yerinə yetirməyən vergi ödəyiciləri bu sistem sayəsində xüsusi şərtlər daxilində vergi münasibətlərini qaydasına salmaq imkanı əldə edirlər. Vergi ödəyiciləri ilə imzalanmış könüllü vergi açıqlaması düzgün şəkildə və aydın tərtib edilərsə, sistem həm vergi ödəyicilərini, həm də vergi orqanlarını faydalandırır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tələblərinə əsasən, könüllü vergi açıqlaması vergi strategiyasının tərkib hissəsi hesab edilir və vergi ödəyicilərinin hesabatlılığını artırmağa, habelə vergi öhdəliklərini yerinə yetirməyə təşviq xarakteri daşıyır.

Vergi ödəyicilərinin fəaliyyətini səmərəli təşkil etmək və inzibati xərclərini azaltmaq məqsədilə dövlət orqanlarına verilən hesabatların sadələşdirilməklə elektron qaydada vahid mərkəzdən paylanması üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan vahid hesabat standartı (Common Reporting Standard) sisteminin tətbiq olunması mexanizmi hazırlanacaq. Bu standartın əsasının qoyulmasını G20 ölkələri təklif etmiş və OECD Şurası 2014-cü il iyulun 15-də təsdiq etmişdir. Hesabatların vahid mərkəzdə yerləşdirilməsi maliyyə institutlarından informasiyanın əldə olunmasına və avtomatik şəkildə mübadiləsinə, nəticədə isə vergidən yayınma hallarını aşkar etməyə imkan yaradır. 2010-cu ildə ABŞ-da qəbul edilmiş vahid hesabat standartı prinsip etibarilə vətəndaşların və müəssisələrin vergidən yayınma hallarının sayını azaltmağa istiqamətlənmiş FATCA müddəalarına uyğundur, lakin daha qlobal xarakter daşıyır. Bu qaydaya əsasən, ölkədən xaricdə yerləşən maliyyə institutları ABŞ-dan olan müştəriləri barədə ölkənin vergi administrasiyasına məlumat ötürməlidirlər.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlıq münasibətlərini daha təkmil müstəviyə gətirmək, vergi öhdəliklərini daha dəqiq müəyyən etmək və proqnozlaşdırmaq üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» («Advance tax ruling» - ATR) qaydasının müəyyən edilməsi də sənəddə öz əksini tapıb. Bu, ABŞ, Birləşmiş Krallıq, Niderland, Almaniya, Avstraliya və Cənubi Afrika kimi inkişaf etmiş ölkələrdə vergi sistemini səciyyələndirən əsas alətlərdən hesab olunur. OECD üzvü olan bütün ölkələrdə vergi ödəyicilərinin bu praktikadan faydalana bilmək imkanı var, o cümlədən üzv olmayan dövlətlər də son dövrdə bu vasitədən daha çox istifadə edirlər. Bu rejim həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün vergi qanunvericiliyinin ardıcıl və aydın şəkildə tətbiqinə əsaslanır. Buna baxmayaraq, məxfi şəkildə, yəni aşkar edilmədən və yaxud hesabatdankənar «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» hallarının yayılması bir sıra risklər yarada bilər. ATR rejiminin tətbiqi ilə bağlı mövcud arqumentləri nəzərdən keçirdikdə aydın olur ki, vergi orqanları ilə razılaşmaların bir sıra üstünlükləri və çatışmazlıqları var. İlk növbədə, bu rejim vergi qanunvericiliyinin tətbiqində şəffaflığa və aşkarlığa gətirib çıxarır ki, bu da öz növbəsində vergi ödəyiciləri və vergi orqanları arasında qarşılıqlı inam və sıx əlaqələrin yaranmasına kömək edir.

### İslahatlar institusional dəyişikliklərin stimullaşdırılmasına ünvanlanmalıdır

İqtisadiyyatda çevikliyin qorunub saxlanması baxımından vergi sistemində islahatların davam etdirilməsinə və hər zaman yenilənmələrə ehtiyac var. Təbii ki, vergi sistemində aparılan islahatlar vergiqoyma mexanizmlərinə, eləcə də vergi dərəcələrinə yenidən baxılması ilə yanaşı, institusional dəyişikliklərin stimullaşdırılmasına da ünvanlanmalıdır. Artıq bu sahədə xeyli iş görülmüşdür. Bununla yanaşı, vergi sistemində aşağıdakı fəaliyyətlərin də nəzərə alınması məqsədəuyğun hesab edilməlidir:

- investisiya vergi sisteminin tətbiqi güzəştdən istifadə etmək hüququ olan müəssisələrin sərəncamında əlavə vəsaitlərin qalmasına və təbii ki, onların inkişafını stimullaşdırmağa xidmət edəcək;
- elektron ticarətin ƏDV-dən azad edilməsi bu sahənin inkişafına yardım göstərməklə yanaşı, onun daha da leqallaşdırılmasına səbəb ola bilər.
- vergi siyasətinin çevikliyi, optimallığının təmin edilməsi və iqtisadi sektorların daimi öyrənilməsi məqsədilə Vergilər Nazirliyi yanında xüsusi səlahiyyətli qurumun formalaşdırılması və oraya ixtisaslaşmış mütəxəssislərin cəlb edilməsi məqsədəuyğundur;
- əhalinin əmək mühitinin yaxşılaşdırılması və işəgötürənlə işçi arasında əmək müqavilələrinin bağlanması, əməkhaqqından tutulan birinci növ gəlir vergisi dərəcəsinə yenidən baxılması, sosial sığorta fonduna işəgötürən tərəfindən ödənilən məbləğlə bağlı bir sıra sektorlarda, xüsusən də tədqiqat və innovasiya sahələrində güzəştlərin tətbiq edilməsi yaxşı olardı;
- Vergi Məcəlləsi üzrə risk təhlilinin aparılması məqsədəuyğundur. Müstəqil və tanınmış xarici şirkət tərəfindən həyata keçirilməsi tövsiyə edilən bu təhlil məcəllənin dayanıqlı inkişaf üçün hansı imkanlar yaratdığını müəyyənləşdirə bilər.

*Hazırladı:* **Elbrus CƏFƏRLİ**

## Sahibkarlar dövlətin verdiyi azad rəqabət imkanlarından öz maraqları üçün istifadə etməməlidirlər



**İlqar NURİ**
*«Veysəloğlu» şirkətinin maliyyə məsələləri üzrə direktor müavini*

Vergi sistemində yeni islahatların istiqamətləri iqtisadiyyatın və sahibkarlığın inkişafında daha bir mərhələnin başlanğıcı hesab edilə bilər. İndiyədək vergi sistemində həyata keçirilən mühüm islahatlar: ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron formada ödənişi, fiziki və hüquqi şəxslərin real vaxt rejimində qeydiyyatının reallaşdırılması və digər yeniliklər sahibkarlığın inkişafında böyük rol oynamaqdadır.

Bizim üçün ən mühüm məqamlardan biri bəzi sahələrdə ƏDV-nin diferensiallaşdırılması ilə bağlı təkliflərin hazırlanmasıdır. ƏDV-nin diferensiallaşdırılması stimullaşdırıcı xarakter daşıyır. Kiçik və orta sahibkarlıq subyektlərinin daha çox marağında olduqları vergi yükünün optimallaşdırılması və ƏDV-nin diferensiallaşdırılması topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərinin mənafeyinə tam uyğundur. Diferensial ƏDV kiçik sahibkarlığın inkişafına imkan yaradır, müəssisələrin böyüməsinə təkan verir. Bu addım sahibkarlıq subyektlərinin sayının artımına gətirib çıxaracaq. Sahibkarlıq subyektlərinin sayı artdıqca vergi ödəyicilərinin də sayı artmış olur. İndiki halda Vergi Məcəlləsində ƏDV tutulan əməliyyatın dəyərinin müəyyən edilməsinin başqa qaydası nəzərə alınmadığından ticarət şəbəkələri ümumi dövriyyədən ƏDV hesablamalı olurlar ki, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olur. Yeni islahatlara əsasən, ƏDV-nin ticarət əlavəsindən hasablanması nəzərdə tutulub. Bu, sahibkarın dövriyyəsinin, son nəticədə isə mənfəətinin artmasına müsbət təsir göstərəcək, vergi dərəcələrinin optimallaşdırılması sahəsində mühüm addım olacaq, beləliklə də ölkədə sahibkarların daha fəal işləməsinə, sərmayə qoymalarına, yeni iş yerlərinin açılmasına öz töhfəsini verəcək.

### ƏDV-nin ticarət əlavəsinə əsasən hesablanması qiymətlərin aşağı düşməsinə səbəb olacaq

Hesab edirəm ki, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək məqsədilə ƏDV-nin ticarət əlavəsinə əsasən hesablanması qiymətlərin aşağı düşməsinə də səbəb olacaq. Amma bunu da vurğulamaq zəruridir ki, sahibkarlar gələcəkdə qanunun tətbiqi zamanı dövlətin verdiyi azad rəqabət imkanlarından öz maraqları üçün istifadə etməməli, ədalətli bazar qaydalarının işləməsinə rəvac verməlidirlər. ƏDV ödənilməklə alınmış malların hər birinin uçotu ayrı-ayrılıqda aparılmalıdır. Belə olduğu halda, qiymət artımının qarşısı alınar və ƏDV-nin ticarət əlavəsindən hesablanması sosial mahiyyət qazanaraq ümumi iqtisadi-sosial vəziyyətə müsbət təsir edə bilər.

Ticarət sahəsində bəzi ərzaq mallarının, uşaq qidalarının, digər zəruri malların fərqli ƏDV-yə cəlb olunması olduqca vacibdir. Dünyanın bir sıra dövlətlərində olduğu kimi, Azərbaycanda da əsas qida malları istehsalı və turizm sahələri üzrə aşağı dərəcə ilə ƏDV tutulması ölkənin bugünkü iqtisadi reallıqlarından irəli gələn addımlardır.

# Sumqayıt Texnologiyalar Parkı – gələcəyin quruculuğu

Norveçdə nəşr olunan və Avropanın ən çox oxunan sənaye jurnalı «Manufacturing Today Europe»un bu ay üçün nəzərdə tutulmuş buraxılışında Sumqayıt Texnologiyalar Parkı (STP) haqqında məqalə dərc olunub. Baş redaktor Emma Krane tərəfindən qələmə alınan «Building the future» («Gələcəyin quruculuğu») başlıqlı yazıda STP barəsində oxuculara dolğun məlumat verilib.




Müəllif məqalənin giriş hissəsində qeyd edib ki, Sumqayıt Texnologiyalar Parkı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2009-cu ilə istismara verilib. Qısa bir zamanda ölkə iqtisadiyyatının qeyri-neft sektorunda özünəməxsus yer tutan bu müəssisə regionda texnoparkların yaradılmasında pioner olmaqla, müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Regionda nadir layihə olan Sumqayıt Texnologiyalar Parkı Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə malikdir.

Məqalədə Sumqayıt Texnologiyalar Parkının zavodları, müəssisənin həyata keçirdiyi layihələr barədə dolğun məlumat verilib, onların istehsal gücü, məhsulları və bir çox tanınmış şirkətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələrinin olduğu qeyd olunub. Həmçinin istehsal olunan məhsulların beynəlxalq standartlara tam cavab verdiyini, zavodların Avropa istehsalı olan laboratoriyalarla təmin olunduğu nəzərə çatdırılıb. Müəllif yazısında STP-də ISO 9001 və OHSAS 18001 beynəlxalq standartlarının da tətbiq olunduğunu qələmə alıb.

Məqalədə diqqətə çatdırılır ki, texnoparkda fəaliyyət göstərən bütün zavodlar Avropa və Yaponiya istehsalı olan ən yeni avadanlıqla təchiz olunub. İstehsal prosesində istifadə olunan xammal və materiallar yüksək keyfiyyətlidir. Şübhəsiz ki, Sumqayıt Texnologiyalar Parkı bu gedişlə regionda böyük layihələrdə daim mərkəzi rol oynayacaq.

Regionda nadir layihə olan Sumqayıt Texnologiyalar Parkı Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə malikdir

# «Shopping festival»a hazırlıq görülür

Bu ilin sonunda Bakıda ilk «Shopping festival» keçiriləcək. Mədəniyyət və Turizm Nazirliyində keçirilən görüşdə Prezident İlham Əliyevin sentyabrın 1-də imzaladığı «Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamda nəzərdə tutulan məsələlər müzakirə olunub.

Həmin tədbirlərdən biri də Bakıda hər il xüsusi vergi şərtləri tətbiq olunan «Shopping festival»ın keçirilməsi idi. Qeyd edək ki, bu cür festivallar dünyanın əksər böyük şəhərlərində keçirilir. Bu ildən ilk dəfə olaraq ölkəmizdə də bu cür festivalın keçirilməsi nəzərdə tutulur. Görüşdə iştirak edən «Milennium Travel» şirkətinin rəhbəri Ruslan Quliyevin sözlərinə görə, ilk «Shopping festival»ın test variantının dekabrın sonu-yanvarın əvvəlində keçirilməsini gözlənilir.

R.Quliyev təklif edib ki, Azərbaycanın mədəniyyətinin, mətbəxinin və turizm imkanlarının təbliğatı məqsədilə Bakıda keçiriləcək fesivalda yerli məhsullara üstünlük verilməsi məqsədəuyğun olardı. Bura ölkədə istehsal olunan xalça, suvenirlər, şərab məhsulları, şirniyyat və s. aiddir. Festivalda xarici brend məhsullar da yer alacaq.

## vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə):** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# «ASAN imza» Rusiyada təqdim ediləcək

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində bu ölkənin Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin təşkilatçılığı ilə keçirilən açıq açar infrastrukturu (PKI) və elektron imza mövzularına həsr edilmiş XIV Beynəlxalq PKI Forumunda Azərbaycanda tətbiq olunan «ASAN imza»nın təqdimat mərasimi keçiriləcək. Tədbirdə Belarus, Qazaxıstan, Azərbaycan, Polşa, Rusiya Federasiyası, Özbəkistan və digər ölkələrdən 300-dən artıq nümayəndə iştirak edir.

Forumda ilk dəfə olaraq mobil elektron imza xidmətinin yaradıcısı və operatoru olan «B.EST Solutions» şirkətinin təsisçisi Yana Krimpe açıq açar infrastrukturu əsasında fəaliyyət göstərən «ASAN imza» texnologiyası haqda ətraflı məlumat verəcək, Azərbaycanda bu texnologiyanın elektron hökumətdən mobil hökumətə keçid prosesində tətbiqi barədə danışacaq. «ASAN imza» texnologiyası bütün dövlət və özəl elektron xidmətlərə məhdudiyyətsiz giriş imkanı təmin edir və qanunvericilik baxımından elektron mühitdə ümummilli vətəndaş pasportu ilə bərabər hüquqlar təqdim edir. Elektron xidmət təminatçıları üçün tətbiqinin asanlığı və əhali üçün kütləvi istifadə baxımından əlçatan olması kimi üstünlüklərə görə, «ASAN imza» texnologiyası hazırda Azərbaycanda vətəndaşlar və sahibkarlar arasında artan populyarlığa malikdir və mobil hökumətin başlıca komponentini təşkil edir.

Tədbirdə iştirakçılara Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Elektron Hökumət və «ASAN Ödəniş» portallarının, eləcə də maliyyə sektorunun «ASAN imza» ilə mümkün olan innovativ elektron xidmətləri təqdim ediləcək.

# Приоритет прозрачности

## Влияние стимулирования безналичных платежей на рост налоговых поступлений

Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsində mükafata layiq görülüb



Тамилла Халилова
«Каспий»

Налоговые отчисления составляют основу любого госбюджета, и Азербайджан, - не исключение. По официальным данным Министерства финансов, утвержденным Милли Меджлисом, относительно исполнения прошлогоднего основного фискального закона, главное налоговое ведомство страны обеспечило исполнение прогноза по сборам налоговых поступлений на 100,1% - 7 млрд 118,2 млн манатов.

Нынче не те времена, нет советских обязательств, потому перевыполнение плана - не дань моде, а веление времени, тем более, что на повестку выходит новая экономическая стратегия, приоритетом которой является ненефтяная сфера.

**Почувствуйте разницу**

Поскольку на дворе затяжной глобальный финансовый и прочий кризис, порожденный геополитической перекройкой карты мира, а биржевые цены на углеводороды просели чуть ли не вчетверо, исходить будем из создавшихся реалий. Новые поколения граждан вряд ли помнят первые годы независимости, когда все источники финансирования едва могли наполнить государственную казну на $200 млн, они привыкли к цифрам с десятью нулями, где только на налоговое ведомство традиционно приходится около половины поступлений. То есть в переводе на понятный язык, с той поры бюджет увеличился чуть ли не в сто раз, и потому не удивительно даже, что мои более юные коллеги, вчитываясь в «талмуд» финансистов, неудовлетворенно качают головами, поскольку доходная часть бюджета исполнена на 88,2%, что составляет 17 млрд 153,2 млн манатов. Но ведь и расходная часть исполнена на 84,3% (17 млрд 786,8 млн манатов), то есть дефицит мог быть еще большим, а составил всего лишь 633,6 млн манатов или чуть больше 1% всего внутреннего валового продукта. При этом следовало бы помнить, что почти треть расходов из народной копилки или примерно 32% (5 млрд 665,9 млн манатов) пришлась на долю социально направленных расходов (фонд оплаты труда, стипендии и социальные пособия, расходы на лекарства и продовольствие), что на 3,4% или 188 млн манатов больше былого рекордного показателя 2014 года.

Кроме того, следует принять во внимание текущие расходы, капитальные вложения в строительство, капремонт, энергетику, обслуживание государственного долга. На фоне нерешенности нагорно-карабахского конфликта актуальны расходы на оборону, а ведь есть иные приоритеты государственной политики, где не последнее место занимают здравоохранение и образование - всех насущных нужд и не перечислить.

**От малого к большему**

По мне, когда возникает вопрос накопления, приоритет должен отдаваться не валу, а прозрачности. И тут на повестку выходит уровень развития безналичных расчетов, в чем налоговики весьма преуспели. Они четко осознают, что это показатель перспективы фискальной политики, так как речь идет о гражданской зрелости тоже. Впрочем, в различных министерствах и ведомствах сейчас также идет активная работа, которая должна в конечном итоге привести к увеличению безналичных расчетов среди населения при проведении оплаты за услуги или приобретение товаров. Особо отметим, что для привлечения населения к безналичным расчетам в нашей стране предполагается проведение разного рода стимулирующих мероприятий, а не введение ограничений. А чем не стимул проведение в стране таких масштабных континентального значения событий, как тот же финал песенного конкурса Евровидение-2012 или первые Европейские игры Баку-2015? Огромное скопление иностранных туристов, не привыкших носить крупные наличные деньги в кармане, и есть самый настоящий стимул. Кроме того, отметим, что несколько лет назад вступили в силу решения Кабинета министров «О правилах установки, использования и внедрения на территории Азербайджанской Республики POS-терминалов» и «Источники финансирования установки на объектах POS-терминалов».

Как рассказал корреспонденту газеты «Каспій» руководитель управления Министерства налогов Тогрул Гулиев, утверждение нормативно-правовых актов по созданию и внедрению системы безналичных расчетов - явление не новое.

- Еще в прошлые годы был принят ряд документов, направленных на развитие данной сферы, - отметил Т.Гулиев. - К этим документам можно отнести Государственную программу Азербайджанской Республики по развитию национальной платежной системы на период 2005-2007 гг., указы и распоряжения главы государства, а также решение Кабинета министров по установке POS-терминалов. В частности, определенных успехов удалось добиться в подготовке и использовании системы электронных безналичных расчетов в рамках реализации нормативно-правовых актов при создании современной национальной платежной системы. В результате проведенных мероприятий удалось создать систему крупных платежей в режиме реального времени, мелких платежей (заработные платы, выплаты по социальной защите, оплата коммунальных услуг - телефон, газ, вода, электроэнергия), а также оплат посредством пластиковых карт. Одним словом, были созданы широкие возможности для проведения прозрачных, безопасных и эффективных мероприятий в сфере безналичных платежей.

Впрочем, для дальнейшего развития безналичных расчетов потребовались дополнительные шаги. Анализ существующего законодательства показал, что для внедрения электронных оплат и расширения безналичных расчетов необходимо внести соответствующие изменения и дополнения. С этой целью были внесены изменения в закон «О защите прав потребителей», в котором предусмотрена установка соответствующих POS-терминалов на торговых, бытовых и другие объектах услуг. Это важно для проведения прозрачной оплаты со стороны клиентов, а также проведения расчетов по пошлинам и другим выплатам в налоговые и другие государственные органы. Для исполнения данного закона были изданы соответствующий указ Президента, а также упомянутые решения Кабинета министров от 4 октября 2012 года. В соответствии с ними Министерству налогов и Центральному банку было поручено обеспечить реализацию необходимых мероприятий для создания возможностей совершать выплаты посредством пластиковых карт. Для решения поставленных задач Министерство налогов подготовило план мероприятий, который был утвержден соответствующим приказом министра.

В плане мероприятий было предусмотрено проведение организационных шагов по установке, внедрению и использованию POS-терминалов, а также мероприятий по контролю, просвещению, информированию и стимулированию. Сегодня план мероприятий выполняется, так что в настоящее время в масштабах страны на объектах торговли и услуг установлено 84 тыс. «умных» аппаратов, - подчеркнул помощник главы налогового ведомства.

**Заинтересованность - прежде всего**

При реализации безналичных расчетов необходимо оптимально использовать заинтересованность как покупателей, так и продавцов в данном процессе.

- В любом процессе платежа, в том числе и безналичных расчетов, участвуют две стороны - сторона, которая проводит платеж, и сторона, которая его принимает, - пояснил представитель фискального ведомства. - Соответственно, для обеспечения роста безналичных платежей необходимо соблюсти интересы обеих сторон. Сегодня ни у кого не вызывают сомнения преимущества безналичных расчетов. Мировой опыт показывает, что безналичные платежи обеспечивают оперативность расчетов, их удобство, безопасность и прозрачность.

Наверное, никто не захочет отказаться от этих преимуществ. Разумеется, для увеличения безналичных расчетов, в первую очередь, необходимо было добиться, чтобы на объектах торговли и услуг были установлены POS-терминалы для проведения электронных платежей. Наряду с этим для привлечения широких масс населения к использованию установленных POS-терминалов необходимо усилить просветительскую работу, а также провести мероприятия по их стимулированию к проведению безналичных расчетов, - подчеркнул Т.Гулиев, особо остановившись на том, что в стимулировании населения к безналичным расчетам стоит широко использовать мировой опыт.

Сегодня в министерстве справедливо считают необходимым детальное изучение международной практики стимулирования безналичных расчетов и внедрение самых передовых методов применительно к местным условиям, что немаловажно. Не секрет, что увеличение доли безналичных расчетов выгодно как для бизнеса, так и для населения, равно, как и для государства.

Международный опыт для расширения безналичных расчетов включает в себя как мероприятия по стимулированию электронных расчетов, так и введение некоторых ограничений для проведения наличных операций. В частности, в Венгрии для установки POS-терминалов предоставляют субсидии на протяжении трех лет. В Швеции предоставляют бонус в сумме 2% на сумму проведенных расчетов в течение года посредством пластиковой карты. А в Колумбии при оплате товаров (услуг, работ) пластиковыми картами НДС снижают на 2%. Кроме того, в некоторых странах с целью снижения до минимума доли наличных расчетов в законодательство введены ограничения. Так, в Казахстане, Российской Федерации, Болгарии и Франции в соответствии с законодательством между хозяйствующими субъектами установлены ограничения во время проведения одной покупки наличными деньгами. В случае превышения установленной суммы расчетов при наличной оплате в отношении налогоплательщика в установленном законодательном порядке вводятся финансовые санкции, – резюмировал Тогрул Гулиев.

beynəlxalq panoram

## ABŞ hökumətinin iddiası qəbul olunmadı

Avropa Komissiyası ABŞ hökumətinin Avropa ərazisində Amerika şirkətlərinə qarşı qərəzli vergi şərtləri qoyması barədə iddiasını rədd etmişdir. Avropa Komissiyasının mətbuat katibi Lyuçia Klaudetin sözlərinə görə, Avropa İttifaqının (Aİ) yeni vergi qanunları heç bir fərq qoyulmadan bütün xarici şirkətlərə şamil edilir: «Aİ qanunvericiliyi Avropada fəaliyyət göstərən bütün şirkətlərə heç bir ayrı-seçkilik qoyulmadan tətbiq olunur. Bizim obyektivliyimizdən şübhələnməyə dəyməz». Bundan əvvəl Avropa Komissiyası «Apple» şirkətinin İrlandiyadakı, «Amazon» şirkətinin Lüksemburqdakı, «Starbucks» şirkətinin isə Niderlanddakı işləri ilə bağlı təhqiqat aparmağa başlamışdı. Yeri gəlmişkən, hazırda «Apple» şirkəti ilə bağlı İrlandiya ərazisində apardığı sövdələşmələrə dair qərar gözlənilir, İrlandiyada şirkətdən Avropa İttifaqı ölkələri arasında ən aşağı dərəcə ilə mənfəət vergisi tutulmuşdur.

ABŞ Maliyyə Nazirliyində əmindirlər ki, Aİ-nin təhqiqatı Amerika şirkətlərini Avropada ən yüksək məbləğdə vergi ödəməyə vadar edəcək. ABŞ qanunvericiliyinə əsasən, bu ölkənin şirkətləri xaricdə əldə etdikləri mənfəət üçün vergi ödəməlidirlər. Beləliklə, Avropada vergi yükünün artacağı təqdirdə şirkətlərin Amerika xəzinəsinə ödənişləri azalacaq. ABŞ hökumətində belə hesab edirlər ki, Aİ-nin mövqeyi beynəlxalq sazişlərə və OECD-nin transfer qiymətləndirmələrlə bağlı qəbul etdiyi normalara uyğun deyil, bu yanaşma beynəlxalq investisiyaların qarşısında əngələ çevriləcək. ABŞ hökuməti Avropa Komissiyasına qarşı iddia irəli sürərkən bu arqumentlərə əsaslanmışdı.

L.Klaudetin bəyanatına əsasən, Avropa Komissiyası vergi yığımları ilə bağlı ABŞ hökuməti ilə daimi əlaqədədir və əvvəlki kimi Avropa dövlət hüquqi yardımına aid məsələlərlə bağlı hər cür zəruri izahları verməyə hazırdır.

## Britaniyanın biznes təmsilçiləri vergi orqanlarının fəaliyyətini təqdir edirlər

Birləşmiş Krallığın Vergi və Gömrük İşləri İdarəsi (HMRC) yerli biznes dairələri arasında apardığı ictimai rəy sorğusunun nəticələrini açıqlamışdır.

Rəyi soruşulanların 78 faizinin bildirdiyinə görə, HMRC biznesə münasibətdə öz işində ardıcıl olmuşdur, 75 faizinin rəyinə görə isə idarə vergi qanunvericiliyinə əməletmə ilə bağlı biznes riskləri barədə düzgün mövqeyə malikdir. HMRC bəyan etmişdir ki, «müəssisələrin əksəriyyəti (rəyi soruşulanların 78 faizi) vergi planlaşdırması ilə bağlı onlardakı risk ehtimalının aşağı olduğunu bildirmişlər, 37 faizi isə öz risklərini «çox aşağı» kimi qiymətləndirmişlər.

«Öz vergi ödəmələrini istənilən formada hüquqi yollarla azaltmaq üçün həmişə açıq olduqlarını» bildirən respondentlərin sayı 2014-cü ildə 74 faiz olduğu halda, bu göstərici artıq 65 faizə enmişdir. Sorğuda iştirak edənlərin 21 faizi vergidən yayınmanı məqbul hesab etdiklərini bildirmişlər ki, bu mövzu üzrə də 5 faizlik azalma müşahidə edilmişdir: vergi qaçaqçılığını özlərinə rəva görənlərin nisbəti 2014-cü ildə 26 faiz olmuşdu.

Bundan əlavə, «gəlirlərimizi daha əlverişli «vergi cənnətlərinə» köçürməklə ödədiyimiz vergilərin məbləğini azaltmaq üçün hər bir imkan məqbuldur» fikrini təsdiq edən respondentlərin sayı da 12 faizdən 8 faizə düşmüşdür.

## Çexiyanın vergi sistemində dəyişiklik edilir

Bu il noyabrın 1-dən satın alınan daşınmaz əmlakdan tutulan verginin məbləği ilə bağlı ölkənin vergi sistemində dəyişikliklər qüvvəyə minəcək. Hazırkı qanunvericiliyə görə, Çexiyada daşınmaz əmlakın satışından vergini satan tərəf ödəyir, alıcı isə dövlət qarşısında zamin rolunda çıxış edir. Satıcı vergini müəyyən edilmiş vaxtda ödəmədikdə vergi alıcıdan tutulur. Yeni dəyişikliyə əsasən, daşınmaz əmlakın alğı-satqısı zamanı vergini alıcı ödəyəcək. Yeni qayda artıq bu il iyunun 1-də Çexiya Senatı tərəfindən qəbul edilmiş və iyulun 27-də ölkə prezidenti tərəfindən təsdiqlənmişdir.

Verginin məbləği satın alınmış obyektin qiymətinin 4%-ni təşkil edir. Müqavilədə göstərilən qiymət qiymətləndiricinin təyin etdiyi rəqəmdən və ya bazar qiymətindən əhəmiyyətli şəkildə fərqli olduqda, müqayisə zamanı aşkar olunan fərqdən də 4% tutulacaq.

Bununla belə, daşınmaz əmlak sahəsində ixtisaslaşmış yerli ekspertlərin proqnozuna görə, yeni qanunun tətbiqi ölkədə mənzillərin qiymətinə əsaslı təsir etmək iqtidarında olmayacaq. 4%-lik vergi ödəməkdən azad olunan satıcılar bunu satdıqları əmlakın qiymətinə əlavə edə bilməyəcəklər, alıcılar isə vergi məbləğini azaltmaq üçün qiyməti aşağı sala bilməyəcəklər. Çexiyanın Maliyyə Nazirliyi daşınmaz əmlak üçün qiymətləri lokal qaydada 3,8 faiz azaltmağı tövsiyə etsə də, hələlik bu dəyişikliyin qiymətlərə təsiri hiss olunmur.



## Bu dəfə də Neymar...

İspaniyanın «Barselona» klubunun və Braziliyanın yığma komandasının hücumçusu Neymar öz ölkəsinin xəzinəsinə vergi ödəməkdən yayındığına görə cəzalandırılmışdır.

Rio-de-Janeyro məhkəməsinin qərarına əsasən, 2007-ci və 2008-ci illərdə vergi qanunvericiliyini pozduğuna görə bu ulduz futbolçu 125 min avro məbləğində cərimə ödəməlidir. Məhkəmə futbolçunun və atasının bu məsələ ilə bağlı apelyasiya şikayətini qəbul etməmişdir.

Xatırladaq ki, bu, Neymarın ilk vergi sərgüzəşti deyildir. Onun adı «Santos» və «Barselona» klublarına keçərkən DİS fondu ilə bağlı vergi fırıldağında da hallandırılmışdı. Fond futbolçunun transferindən gələn məbləğin 40 faizini almalı idi, 83,3 milyon avro olan ümumi transfer məbləğindən fonda 17,1 milyon avro (ümumi məbləğin 20,5 faizi) verilmişdi. O vaxt günahı «Barselona» klubunun rəhbərliyi öz üzərinə götürmüş və Neymarla müqavilə tərtib olunarkən səhvə yol verdiyini etiraf etmişdi.

## Xəbər lenti

**Avropa Komissiyası**nın rəsmi saytının açıqladığı məlumata əsasən, Avropa İttifaqına daxil olan ölkələr 2014-cü ildə ümumilikdə 159,5 milyard avro məbləğində əlavə dəyər vergisini büdcəyə cəlb edə bilməyiblər.

**Hindistan**da yeni qanun ratifikasiya edildikdən sonra əksər ştatlarda mallara və xidmətlərə vergi tətbiq olunmağa başlamışdır. Hazırda ölkədə bu verginin dərəcəsi təxminən 18% təşkil edir.

**İrlandiya** hökuməti bəyan etmişdir ki, ölkə Avropa Komissiyasının qərarı çərçivəsində «Apple» şirkətindən 13 milyard avro məbləğində ödənilməmiş vergiləri geri alacaq.

**Litva**nın Baş naziri Edqaras Savitskas bildirmişdir: «Biz razılaşa bilmərik ki, şirkətlər özləri böyük gəlirlər əldə etdikləri halda, işçilərin əməkhaqqı 1-2% artırılsın və özlərinə milyonlarla dividend götürsünlər». Onun sözlərinə görə, bu vəziyyət əmlakın vergiyə cəlb olunması ilə bağlı yeniliklər barədə düşünməyə əsas verir.

**Ukrayna**nın maliyyə naziri Aleksandr Danilyuk Vergi Məcəlləsinə dəyişiklik paketini Ali Radanın vergi və gömrük siyasəti komissiyasına təqdim etmişdir. Məcəlləyə dəyişikliklərin sentyabrın sonunda hökumətə təqdim olunacağı gözlənilir.

**Sinqapur və Avstraliya**nın ofşor yurisdiksiyaları vergidən yayınma hallarının qarşısının alınması məqsədilə 2018-ci ilin sentyabrınadək vergi rezidentlərinin maliyyə fəaliyyətləri ilə bağlı avtomatik məlumat mübadiləsi etmək barədə razılığa gəlmişlər.

**«Moody's Investors Service»** kredit reytinq agentliyi Misirdə əlavə dəyər vergisinin tətbiq olunmasını alqışlayaraq, bununla dövlət maliyyələşməsindəki bir çox boşluqların aradan qaldırılacağına əminlik ifadə etmişdir.

## «Çanta vergisi» Avstraliyada turizmi zədələyə bilər

Yeni aparılmış sosioloji sorğu göstərir ki, Avstraliyaya məzuniyyət vaxtı işləməyə və istirahət etməyə gələn turistlər üçün nəzərdə tutulan «arxa çantası» vergisi ölkənin turizm sektoruna ciddi mənfi təsir göstərəcək.

Federal hökumət müvəqqəti təsadüfi işlərdə çalışan turistlərə 32,5% dərəcəsi ilə vergi qoymağı planlaşdırır. Hökumətin bu niyyətini artıq turoperator şirkətləri kəskin etirazla qarşılayıblar. Onların turistlər arasında keçirdikləri sosioloji sorğunun nəticələrinə əsasən, «arxa çantası» vergisi qüvvəyə minəndən sonra turistlərin 60%-i Avstraliyaya gəlməkdən imtina edəcəklər. Turistlərin yarıdan çoxu Avstraliyada daha az vaxt keçirəcəyini, 69%-i isə daha az pul xərcləyəcəyini bildirmişdir.

«Sorğunun nəticələri ümumilikdə belə qənaət yaradır ki, turistlər təşvişə düşüblər. Məsələ bundadır ki, ölkəyə işləməyə gələn turistlər ən aşağı tariflə - günü 21-22 ABŞ dollarına təsadüfi işlərdə çalışırlar. Bu məbləğin üçdə birini vergi kimi ödəyəndə isə yeməyə, qalmağa və nəqliyyata cəmi 14-15 dollar qalır», - «YHA Australia and Monash» Universitetinin direktoru Culian Lecer bildirmişdir. Onun sözlərinə görə, nəzərdə tutulan vergi qüvvəyə minəndən sonra ölkəyə məzuniyyət vaxtı istirahət etməyə və işləməyə gələn turistlərin 62%-i Yeni Zelandiyanı seçəcəklər.



krossvord

**Yuxarıdan aşağı:** 1.İkitəkərli nəqliyyat vasitəsi; 2.Hər hansı fəaliyyət sahəsində yeni, mütərəqqi fikir, üsullar irəli sürən və həyata keçirən adam; 3.Bankın, şirkətin və s.-nin borc iltizamlarını vaxtında ödəyə bilməməsi səbəbindən müflisləşməsi; 4.Şirkət və ya təşkilatlar ittifaqı, birləşmə; 5.Pul vəsaitlərinin bank vasitəsilə ödəyicidən qəbul edən tərəfə çatdırılması; 6.Yerin dərin qatlarında yüksək temperatur və təzyiq şəraitində əmələ gələn mürəkkəb tərkibli od kütləsi; 7.Vaxtilə Rusiyada mövcud olan kiçik yeməkxana (traktir); 13.Öz adını daşıyan kəfkiri və giroskopu kəşf edən Fransa fiziki, mexaniki və astronomu; 15.Hərbi dəniz donanmasında ən yüksək rütbə; 16.«Qara Qarayev» metrostansiyasının əvvəlki adı; 17.Düşmənə zərbə endirmək məqsədilə qoşunların və ya donanmanın bir yerdən başqa yerə hərəkəti və toplanması; 18.1826-cı ildə Rusiya-İran müharibəsi zamanı Azərbaycanda qanlı döyüşlərin getdiyi ərazilərdən biri; 20.Məşhur Azərbaycan kinorejissoru, kinooperatoru, ssenaristi, Azərbaycanın xalq artistinin adı (1933-2006); 21.Qərbdə geniş yayılmış qadın adı, məşhur Hollivud aktrisalarından biri bu adı daşıyır. **Soldan sağa:** 1.XIX əsrin sonu - XX əsrin əvvəllərində fəhlə hərəkatında ortaya çıxmış xırda burjua cərəyanı; 8.Ayın görünən hissəsində krater; 9.Qırmızı desert şərabı; 10.Fransada kommuna; 11.Göz almasının qeyri-iradi, ardıcıl, ritmik hərəkəti ilə müşayiət olunan xəstəlik; 12.Cədvəllərdə iki vertikal xətt arasındakı sütun, bölmə; 14.Vitaminlərlə zəngin al-qırmızı rəngdə mövsümi bitki; 19.Rusiya və Ukraynada çay; 21.Nizami Gəncəvinin poemalarının ümumi adı; 22.Rusiyada şəhər; 23.Velosiped idmanı üzrə məşq və yarışlar üçün nəzərdə tutulmuş qapalı meydan; 24.RF-nin Xabarovsk diyarında çay; 25.Goranboy rayonunda kənd və bələdiyyə.



*İran-Rusiya müharibəsi zamanı Azərbaycan ərazisində döyüş. Rəssam: Natiq Fərəcullazadə*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bioloq; 2.Klirinq; 3.Ehsan; 4.İlyavu; 5.Limonad; 6.Qeyşa; 7.Berqut; 13.Ağrı; 15.Bolnisi; 16.Google; 17.Komodo; 18.Delorm *(Filiber)*; 20.Temza; 21.Kioto. **Soldan sağa:** 1.Bakterioloq; 8.Odissey; 9.Mayor; 10.Orion; 11.Vanuatu; 12.Oqtay *(Zülfüqarov)*; 14.Ədibə; 19.Ontario; 21.Kelme; 22.Gəmi; 23.Borodino (döyüşü); 24.Era; 25.Neologizm.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 11000

## idman

# Bakının sahiblik etdiyi daha bir idman bayramına yekun vuruldu



Sentyabrın 13-də Milli Gimnastika Arenasında paytaxtımızda təşkil olunan 42-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli bağlanış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Repsublikası Baş nazirinin birinci müavini, Bakı Şahmat Olimpiadasının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov, gənclər və idman naziri Azad Rəhimov, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov, Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov və təşkilatın digər nümayəndələri, şahmat üzrə dünya çempionları, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Mükafatlandırma mərasimindən sonra çıxış edən FIDE-nin prezidenti Kirsan İlyumjinov 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirərək deyib: «Yarışın təşkilatçıları irimiqyaslı şahmat turnirlərinin təşkilində yeni standart müəyyənləşdiriblər. Növbəti Olimpiadanın təşkilatçıları bu səviyyəyə nail olmaq üçün çox çalışmalıdırlar. Biz bu gün möhtəşəm yarışı başa vururuq. Ancaq sabah minlərlə gənc qız və oğlan idmanın bu növü ilə məşğul olmağa başlayacaq və şahmatın incəliklərini öyrənməyə çalışacaqlar. İnanıram ki, biz qonaqpərvərliyi ilə seçilən Azərbaycana yenidən qayıdacağıq». Şahmatın inkişafına davamlı dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Kirsan İlyumjinov ölkəmizin mötəbər beynəlxalq yarışlara həmişə yüksək səviyyədə ev sahibliyi etdiyini, idmançıların və qonaqların Azərbaycandan xoş təəssüratlarla ayrıldığını vurğulayıb.

Sonra FIDE-nin bayrağı arenaya gətirilib və beynəlxalq şahmat qurumunun himni səsləndirilib. Növbəti Olimpiadanın keçiriləcəyi ölkəyə FIDE-nin bayrağının təqdim edilməsi üçün Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Gürcüstanın idman və gənclərlə iş üzrə naziri Tariel Xeçikaşvili səhnəyə dəvət olunublar. Çıxışlardan sonra FIDE prezidenti Kirsan İlyumjinov 42-ci Ümumdünya Şahmat Olimpiadasını bağlı elan edib. Daha sonra 2018-ci ildə 43-cü Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edəcək Batumi şəhəri ilə bağlı videoçarx nümayiş olunub. Mərasim Gürcüstanın «Kaxaberi and Xanums» musiqi qrupunun çıxışı ilə davam edib. Sonda Azərbaycanın Əməkdar Artisti Sevda Ələkbərzadənin ifa etdiyi «Sarı gəlin» mahnısı tamaşaçılar tərəfindən yüksək coşqu ilə qarşılanıb.

Qeyd edək ki, on bir turdan ibarət yarışlarda kişilərin mübarizəsində aktivində 20 xal olan ABŞ millisi çempion adını qazanıb. Eyni xala malik Ukrayna isə ikinci yeri tutub. Rusiya millisi isə 17 xalla bürünc medal qazanıb. Hesabında 15 xal olan əsas komandamız yarışı 12-ci sırada tamamlayıb. İkinci yığmamız 14 xalla 26-cı, üçüncü komandamız isə 13 xalla 49-cu pillədə yer alıb.

Qadınların yarışında qalib adını 20 xalla Çin şahmatçıları qazanıblar. Hesabında 17 xal olan Polşa ikinci, Ukrayna isə üçüncü pillədə yer alıb. Azərbaycanın əsas komandası yarışı 16 xalla 8-ci pillədə başa vurub. On üç xal toplayan üçüncü komandamız 30-cu, ikinci yığmamız isə 32-ci olub.

# Paralimpiyaçılarımız mübarizəni davam etdirirlər



Rio-de-Janeyroda keçirilən XV Yay Paralimpiya Oyunlarında altı günlük gərgin idman mübarizəsindən sonra 78 ölkənin atletləri medallara sahib ola biliblər. Aktivində 1 qızıl, 5 gümüş və 2 bürünc medal olan yığma komandamız bu göstərici ilə 38-ci sırada qərarlaşıb. Cüdo yarışlarında Ramil Qasımov (73 kq) qızıl, Bayram Mustafayev (66 kq) gümüş, Rövşən Səfərov (81 kq) bürünc medala sahib olublar. Yelena Çebanu 100 metr məsafəyə qaçış, uzunluğa tullanma yarışlarında gümüş, 200 metr məsafəyə qaçışda isə bürünc medal qazanıb. Kamil Əliyev uzunluğa tullanma, Dmitri Saley isə brass üsulu ilə üzgüçülük yarışlarında Paralimpiadanı ikinci pillədə başa vurublar.

Hazırda Paralimpiadaya hesabında 63 qızıl, 51 gümüş və 33 bürünc medal olan Çin liderlik edir. Böyük Britaniya 34 qızıl, 18 gümüş, 23 bürünc medalla ikinci, Ukrayna 27 qızıl, 21 gümüş və 24 bürünc medalla üçüncü pillədə qərarlaşıb. İlk onluğu ABŞ (21-21-19), Braziliya (10-21-12), Avstraliya (8-17-15), Yeni Zelandiya (8-5-3), Niderland (7-11-12), Nigeriya (7-2-1) və Almaniya (6-10-7) tamamlayır.

## Aleksander ˙eferin UEFA-nın yeni prezidentidir



Sentyabrın 14-də Yunanıstanın paytaxtı Afinada təşkil edilən konqres çərçivəsində baş tutan seçkilərdə Sloveniya Futbol Federasiyasının prezidenti Aleksander Çeferin UEFA-nın yeni prezidenti seçilib. Futbol funksioneri 55 mümkün səsdən 45-ni toplayıb. A.Çeferin qitə futbol qurumunun prezidenti postu uğrunda səsvermədə Niderland Krallığı Futbol Federasiyasının rəhbəri Mixael van Praqı qabaqlayıb.

Qeyd edək ki, AFFA səsvermədə Çeferinə səs verəcəyini öncədən açıqlamışdı. Sloveniyalı qurumun tarixinə yeddinci prezident kimi düşüb. O, fransalı Mişel Platininin vəzifəsindən kənarlaşdırılmasından sonra boş qalan posta yiyələnib.

## mozaika

# Linza smartfona siqnal göndərir

texnologiya

Son zamanlar smartfonların gündəlik həyatın bir çox elementləri ilə əlaqələndirilməsi aktualdır: artıq müxtəlif aktları bu sehrli cihaz vasitəsilə idarə etmək mümkündür. Bu dəfə mütəxəssislər kontakt linzaların smartfonlara siqnal göndərməsi üçün yeni mexanizmin hazırlanmasına nail olublar.

Kompüter Elmləri və Mühəndislik üzrə Vaşinqton Universitetinin mühəndisləri kontakt linzalar və beyin implantları vasitəsilə insanla smartfon arasında əlaqə yaradılmasının innovativ üsulunu aşkar ediblər. Bluetooth siqnallarını Wi-Fi siqnallarına çevirən bu mexanizm vasitəsilə mobil qurğu ilə kontakt linza arasında informasiya mübadiləsi baş tutur. Mütəxəssislər nazik anten ilə təchiz olunmuş linza hazırlayaraq bu yeni üsulu sınaqdan keçiriblər. Bluetooth siqnallarını manipulyasiya etmək qabiliyyətinə malik anten linzadakı məlumatları toplayaraq Wi-Fi siqnalları vasitəsilə qarşıdakı qurğuya ötürür.



Tədqiqatçılar bu yeni mexanizmin tibb, xüsusilə diaqnostika sahəsi üçün faydalı olacağını bildirirlər. Vurğulanır ki, pasiyentin göz yaşları vasitəsilə qandakı şəkərin miqdarının ölçülməsinin belə mümkün olduğu bu yeni üsulun daha da təkmilləşdirilməsi gözlənilir.

# İnsanlığın özü ilə yaşıd...

arxeologiya

Avstraliya Milli Universitetinin arxeoloqları Asiyanın cənub-şərqində yerləşən Timor adasında 42 min il bundan əvvələ aid bəzək əşyaları aşkar ediblər. Əvvəllər bu ərazidə qazıntılar aparılmadığından, alimlər hesab ediblər ki, burada məskən salan insanlar inkişafdan geri qalıblar. Amma avstraliyalı arxeoloqların aşkar etdikləri balıqqulağından hazırlanmış muncuqlar bu fikri təkzib edib. Tədqiqatçıların fikrinə görə, gələcəkdə bu ərazidə aparılacaq qazıntı işləri zamanı daha çox maraqlı maddi mədəniyyət nümunələri üzə çıxacaq.

Qeyd edək ki, İsraildə tapılan ən qədim bəzək əşyasının təxminən 100 min il, Avropadakının isə 50 min il yaşı var.

# Siqareti tərgitməyin yolları

cəmiyyət

Oksford Universitetinin (Böyük Britaniya) alimləri tədqiqat apararaq siqaretdən imtina etməyin səmərəli yolunu müəyyən ediblər. Mütəxəssislərin fikrincə, siqaret çəkməyi tədricən tərgitmək lazımdır. Bir gün ərzində siqareti tam atmaq cəhdi əksər hallarda bu zərərli vərdişə tezliklə qayıtmaqla nəticələnir.



Eksperimentdə siqaret çəkən könüllülərin iki qrupu iştirak edib. Alimlər qruplardan birinə siqareti birdən tərgitməyi təklif ediblər, digər qrupa isə bu iş üçün kifayət qədər vaxt verilib. Məlum olub ki, gün ərzində çəkilən siqaretlərin sayının tədricən azaldılması ilə əldə edilən nəticə daha yaxşıdır. Bu qrupda zərərli vərdişə qayıdanların sayı xeyli az olub.

Nikotindən asılılıq daha çox psixoloji xarakterdədir. Məhz buna görə də zərərli vərdişə qarşı bir çox mübarizə yolları mövcuddur. Bilmək lazımdır ki, siqaretdən imtina etmək asandır, bunun üçün rahat yolu seçmək və öz qüvvənə inanmaq kifayət edər.

# BMT zərərli qida məhsullarının təbliğinin əleyhinədir

sağlam həyat tərzi

BMT-nin insan haqları üzrə ekspertləri Olimpiya Oyunlarında və digər idman tədbirlərində zərərli qida məhsullarının və içkilərin reklamına yol verməməyə çağırıblar. Hüquq müdafiəçiləri bu cür məhsulların reklamına məşhur idmançıların cəlb edilməsindən narahatdırlar. Belə reklamlar özlərini pərəstiş etdikləri idmançılara bənzətməyə çalışan uşaqlara yalan məlumat ötürür.

BMT-nin qidalanma hüququ məsələləri üzrə xüsusi məruzəçisi Hilal Elver və sağlamlıq hüququ məsələləri üzrə xüsusi məruzəçisi Daynyus Puras Beynəlxalq Olimpiya Komitəsinə, xüsusilə marketinq uşaqlara və ailələrə yönələrkən qeyri-sağlam qida məhsulları reklamının tənzimlənməsi qaydalarını izləməyi təkidlə tövsiyə ediblər.

Dünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə bu yaxınlarda aparılmış tədqiqatın nəticələrinə görə, qeyri-sağlam qidalanma yoluxucu olmayan xəstəliklərin və vaxtsız ölümün əsas səbəblərindən biridir. İntensiv emala cəlb edilən, tərkibində çoxlu miqdarda duz, şəkər və müxtəlif piylərin olduğu qida məhsullarının istehlakı ürək-damar sistemi xəstəliklərinin, şəkərin və xərçəngin müxtəlif növlərinin yaranmasına səbəb olur.



Xüsusi məruzəçilər məşhur idmançıların qeyri-sağlam qida məhsullarının reklamına cəlb edilməsi praktikasını pisləyiblər. Axı uşaqlar marketinqi həqiqi və obyektiv məlumat kimi qəbul edə bilər və idmançıların reklam etdirdikləri məhsulları istehlak etməsinə inanarlar. Qeyri-sağlam qida piylənmə ilə nəticələnə bilər. Hazırda 5 yaşınadək 41 milyon uşaq artıq çəkidən əziyyət çəkir. Bu hal davam edərsə, 2025-ci ilədək 70 milyon körpə və azyaşlı uşaq artıq çəkidən və ya piylənmədən əziyyət çəkəcək. Ekspertlər bildirirlər ki, dövlətlər uşaqlar üçün qeyri-sağlam qida istehlakına aparıb çıxaran reklam kampaniyalarının qarşısını almalıdır.

# Xəbərləri robotlar yazacaq

elm

Bəzilərinin arzuladığı, digərlərinin isə qorxduğu süni intellekt hər halda bəşəriyyət üçün müəyyən qədər təhlükəlidir, çünki onun ucbatından insanların bir hissəsi işsiz qalacaq.



«Telecom Daily» ekspertlərinin fikrincə, on il sonra süni intellekt onlayn nəşrlərdə jurnalistləri tam əvəz edəcək. Bundan sonra vəkillər və musiqiçilər işsiz qalacaq.

«Telecom Daily»nin rəhbəri Denis Kuskov deyir: «İndinin özündə «Washington Post» nəşrinin redaksiyasında materialların hazırlanmasında robotların köməyindən fəal istifadə edilir. Söhbət Rio-de-Janeyroda keçirilən Olimpiya Oyunları ilə bağlı xəbərlərin axtarışı məqsədilə informasiya məkanını skanerdən keçirən, sonra məlumatları nizamlayan və onları emal edən proqramdan gedir».

«Washington Post» üçün materiallar tərtib edən robotun fantaziyası yoxdur və bədii cəhətdən olduqca zəif xəbərlər yazır. Amma idman xəbərləri elə qısa və quru olmalıdır. Odur ki, proqram öz vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Üstəlik, insandan fərqli olaraq, süni intellekt yorulmur, maaş tələb etmir və həmişə sabit nəticə verir. Bir sözlə, o, ideal işçidir.

**Müdriklər deyib ki...**



*«Hər bir insanın qarşısında qaçılmaz bir vəzifə durur – insan olmaq: bu gün, sabah, həmişə».*

*Çingiz Aytmatov (1928-2013)*